RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 117 (8996) BAZAR, 5 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## “Türkiyə-Azərbaycan əməkdaşlığı Avropanın enerji təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edir”

### Türkiyə Prezidenti Bakı Enerji Həftəsinin iştirakçılarına təbrik məktubu ünvanlayıb

"Bütün sahələrdə olduğu kimi, enerji sahəsində də Can Azərbaycan ilə mükəmməl səviyyədə davam edən əməkdaşlığımız ölkələrimiz və bölgəmiz üçün strateji xarakter daşıyır". AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakı Enerji Həftəsinin iştirakçılarına ünvanlandığı təbrik məktubunda yer alıb.

President Rəcəb Tayyib Ərdoğanın məktubunda Azərbaycanın və Türkiyənin birlikdə reallaşdırdıqları nəhəng layihələrlə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadıqları vurğulanıb: "Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəmərləri və Trans-Anadolu təbii qaz boru kəməri - TANAP kimi nəhəng layihələrin həyata keçirilməsi ilə regional və qlobal enerji təhlükəsizliyinə mühüm töhfə verdik. Hazırda yaşadığımız kritik dönəmdə TANAP-ın onurğa sütununu təşkil etdiyi "Cənub qaz dəhlizi" Avropanın dördüncü təbii qaz arteriyası rolunu oynayır. "Cənub qaz dəhlizi" ilə bu günədək Türkiyəyə 15 milyard kubmetr, Avropanın digər ölkələrinə isə 10 milyard kubmetr təbii qaz nəql edilib. İlham qardaşımla birlikdə əlaqələrimizi müttəfiqlik səviyyəsinə çatdırdığımız Şuşa Bəyannaməsində də vurğuladığımız kimi, "Cənub qaz dəhlizi"nin potensialının artırılmasının önəmini ifadə etdik. Beynəlxalq aləmdə yaşanan proseslər atdığımız bu addımların nə qədər doğru olduğunu göstərir. Türkiyə-Azərbaycan əməkdaşlığının Avropanın enerji təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb etdiyi artıq daha yaxşı dərk olunur".

Məktubda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bərpaolunan enerji növlərinin inkişafı istiqamətində də mühüm addımlar atdığı qeyd olunub: "Qardaşım İlham Əliyevin liderliyi ilə Azərbaycanın bərpaolunan enerji sahəsində nümayiş etdirdiyi mövqe regional sabitlik və rifah baxımından yol xəritəsi rolunu oynayır. Bu baxımdan Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji bölgəsi" elan edilməsi son dərəcə düzgün addımdır".

Türkiyə dövlətinin başçısı enerjinin və enerji təhlükəsizliyinin əhəmiyyətinin getdikcə artdığı bir dövrdə keçirilən Bakı Enerji Həftəsinin işinə uğurlar arzulayıb, bütün iştirakçılara təbriklərini çatdırıb.



# İlham Əliyevin qlobal nüfuzu Azərbaycana beynəlxalq etimadı yüksəldir

**İki il əvvələ qədər Azərbaycan dünyada Cənubi Qafqazın iqtisadi və hərbi gücü, nəhəng enerji və nəqliyyat infrastrukturlarının müəllifi, regionda söz sahibi olan aparıcı dövlət kimi tanınırdı. 2020-ci ilin Vətən müharibəsində isə bunların sırasına biri də əlavə olundu: Cənubi Qafqazın qalib dövləti. 44 günlük müharibədə qazanılan qələbə Azərbaycana dünyada olan ehtiramı daha da gücləndirdi, dövlətimizin nüfuzunu daha da artırdı.**

**Azərbaycana olan yüksək ehtiramı isə bir çox siyasi və iqtisadi müstəvilərdən müşahidə etmək mümkündür. Bu günlərdə 28 May Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevin ünvanına dövlət və hökumət başçıları, parlament sədrləri, beynəlxalq təşkilatların rəhbərləri tərəfindən gələn hər bir təbrik məktubunun məzmunu bunun bariz təsdiqidir. Bu məktubların hər biri həm də Azərbaycan Prezidentinin qlobal səviyyədəki yüksək nüfuzunun təcəssümüdür. Azərbaycan Prezidentinin ünvanına göndərilən təbriklərin böyük əksəriyyətinin müəllifləri dövlət və hökumət rəhbərləridir.**

→ 3

## Döyüş hazırlığı daim yüksək səviyyədə saxlanılır

İyunun 4-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.

Nazir Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları çatdırıb.

Müşavirədə ötən ay ərzində qoşun növlərinin fəaliyyəti qiymətləndirilib, döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyət, müdafiə sistemi və onun hərtərəfli təminatı məsələləri diqqətə çatdırılıb, qoşunların döyüş qabiliyyətinin daha da artırılması, eləcə də qarşılıqlı əlaqənin təkmilləşdirilməsi məqsədilə komandir-rəis heyəti qarşısında müvafiq tapşırıqlar qoyulub. Həmçinin real döyüş şəraitinə uyğun keçirilən təlim və praktiki məşqlərin intensivliyinin və keyfiyyətinin artırılmasının vacibliyi xüsusi qeyd edilib.

General-polkovnik Zakir Həsənov döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması, bölmələrimizə qarşı mümkün təxribatlara dərhal adekvat cavab tədbirlərinin görülməsi ilə bağlı konkret tapşırıqlar verib.

Müdafiə naziri müddətli həqiqi hərbi xidmətə yeni çağırılacaq gənc əsgərlərin fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi, onların hərbi xidmətə adaptasiyası, şəxsi heyətin xidməti təhlükəsizliyinin təmin edilməsi və sağlamlığının qorunması məsələlərinin diqqət mərkəzində saxlanılması ilə bağlı göstəriş verib.

Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə yaradılan Milli Müdafiə Universitetinin fəaliyyəti müsbət qiymətləndirilib.

## Su həm də bolluqdur

Azərbaycanda hər zaman kənd təsərrüfatının yüksəlişi, məhsul bolluğunun yaradılması, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı digər amillərlə yanaşı, meliorasiya və su təsərrüfatının inkişafından, bu sahədə aparılan islahatlardan, böyük quruculuq işlərindən, geniş meliorasiya potensialının yaradılmasından asılı olmuşdur.

Bu da səbəbsiz deyil. Ölkəmizin əsas kənd təsərrüfatı bazası sayılan Kür-Araz düzənliyinin ərazisi quraq və arid zonada yerləşdiyinə görə bu ərazidə suvarma aparılmadan, meliorasiya və su təsərrüfatını inkişaf etdirmədən kənd təsərrüfatı məhsullarının yetişdirilməsi mümkün deyil.

Bunu böyük uzaqgörənliklə qeyd edən və "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik" sözlərini tarixə yazmış müdrik şəxsiyyət, dünyaşöhrətli siyasətçi Ulu Öndər Heydər Əliyev meliorasiya və su təsərrüfatı sahəsini daim diqqət mərkəzində saxlamış, onun inkişafına xüsusi əhəmiyyət vermişdir. Azərbaycanda meliorasiya və irriqasiya işləri keçən əsrin əvvəllərində təşəkkül tapsa da, onun genişmiqyaslı, intensiv inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ümumiyyətlə, Azərbaycanda həm keçmiş SSRİ dövründə, həm də müstəqilliyin ilk 10 ilində kənd təsərrüfatının inkişafı haqqında bir neçə tarixi qərarlar qəbul edilmiş, kompleks meliorasiya proqramları hazırlanmış və meliorasiya olunmuş torpaqlarda kənd təsərrüfatı istehsalının sabit şəkildə artırılması üçün mühüm tədbirlər işlənib həyata keçirilmişdir.

→ 5



# "Ağıllı kənd"dən vacib ismarıc

→ 8

## Bakı zümrüd şəhərə çevrilir

"Bir vaxtlar bu ərazi çox baxımsız idi. Hər səhər pəncərəni açanda tullantıların üfunəti evə yayılırdı. Çox pis vəziyyətlə üz-üzə idik. Yayda uşaqların oynaması, böyüklərin istirahət etməsi üçün ərazidə yaşıllıq sahəsi yox idi. Ərazi hansısa sahibkar tərəfindən alınmışdı. İndi isə ürəyimiz dağa dönüb. Çünki hər günümüz gözəl mənzərəyə açılır. Havalar mülayimləşəndən nəvələrimlə hər gün parkda vaxt keçiririk, onlar oynayır, əylənir, biz də qonşularla söhbət edirik. Allah Prezidentimizin canını sağ eləsin. Bizim üçün hər cür şəraiti yaradıb".



→ 6

## Naxçıvan gerçəkliklərindən bəhs edən "NAXÇIVAN GERÇƏKLİKLƏRİ"

→ 4

## Şamaxı "Türk dünyasının turizm paytaxtı" olacaq

→ 7

## Əfsanəvi Sara

→ 7

## Dünyanı enerji böhranı təhdid edir



Koronavirus pandemiyası universal enerjiyə çıxış yolunda da tərəqqiyə mane olan əsas amillərdən birinə çevrildi. Belə ki, hazırda dünyada 733 milyon insan elektrik enerjisi olmadan yaşayır və 2,4 milyard insan hələ də sağlamlığa və ətraf mühitə zərər vuran yanacaqlarla yemək bişirir.

Hesablamalara görə, 2030-cu ilə qədər təxminən 670 milyon insan işıqsız qalacaq ki, bu da keçən il proqnozlaşdırılandan 10 milyon nəfər çoxdur.

→ 8

# Su təsərrüfatı və meliorasiya işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Bünyatov Zalış Alkişi oğlu
Hacıyev Vahid Hilal oğlu
Həsənov Arif Daxıl oğlu
Məmmədov Cahan Cahangir oğlu

**"Tərəqqi" medalı ilə**

Aslanov Şahin Sabir oğlu
Aşırov Nurəddin Tapdıq oğlu
Babayev Əlixan Əmirxan oğlu
Babayev Vidadi Aydın oğlu
Balamiyev Ramis Memasala oğlu
Bünyətov Sabir Hüseyn oğlu
Daşdəmirov Qaçay Daşdəmir oğlu
Əliyev Muğamət Camaləddin oğlu
Heydərov İsrəfil Dünyamalı oğlu
Kərimov Qulu Azay oğlu
Kərimov Mehman Hüsü oğlu
Quliyev İntiqam Sabir oğlu
Quliyev Sahəddin Həsənqulu oğlu
Quliyev Şamil Hüsi oğlu
Məmmədov Anar Əli oğlu
Məmmədov Malik Əbdülxaliq oğlu
Məmmədov Vaqif Lətif oğlu
Niyazova Gülçöhrə Rəsul qızı
Novruzov Elman Novruz oğlu
Ömərov Akif Məmmədəli oğlu
Rüstəmov Azad Hacıbala oğlu
Rzayev Telman Qafar oğlu
Sadıqov Vilayət Vəliyullah oğlu
Süleymanov Ramis Rəhim oğlu
Şirinov Rafael Mikayıl oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2022-ci il*

# Su təsərrüfatı və meliorasiya işçilərinə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə "Əməkdar mühəndis" fəxri adı verilsin:

Abasov Xalid Əvəz oğlu
Abdullayev Elşad Əlipaşa oğlu
Abışov İxtiyar Şükür oğlu
Məmmədov Adəm İman oğlu
Məmmədov Natiq Misir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2022-ci il*

# 7-ci Beynəlxalq Sosial Elmlər Konqresinin iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

ADA Universitetində Milli Məclis, Türkiyə Böyük Millət Məclisi və Beynəlxalq Balkan Universitetinin birgə təşkilatçılığı ilə keçirilən 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi çərçivəsində ölkəmizdə səfərdə olan Türkiyə universitetlərinin rektorları Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.





Bu barədə AZƏRTAC-a ADA Universitetindən məlumat verilib. Bildirilib ki, nümayəndə heyəti Şəhidlər xiyabanını da ziyarət edib. Qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canından keçmiş şəhidlərin məzarlarını ziyarət edərək "Əbədi məşəl" abidəsinin önünə gül dəstəsi düzüblər. Daha sonra nümayəndə heyəti şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət edərək şəhidlərin xatirəsini yad ediblər. Xatırladaq ki, iyunun 2-də başlamış 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi Şuşada keçiriləcək bağlanış mərasimi ilə yekunlaşacaq.

# İqtisadi Şuranın növbəti iclası keçirilib

Mayın 27-də Prezident İlham Əliyevin Zəngilan rayonunda çıxışı zamanı iqtisadiyyatımızın mövcud müsbət nəticələrini nəzərə alaraq 2022-ci ilin dövlət büdcəsinə əlavələr edilməsi ilə bağlı hökumətə verdiyi tapşırıqdan irəli gələrək İqtisadi Şuranın növbəti iclası keçirilib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda cari ilin ötən dövrü üzrə iqtisadi vəziyyət, ortamüddətli sosial-iqtisadi proqnoz göstəriciləri, büdcə gəlirlərinin nəzərdə tutulandan daha çox icra edilməsi, 2022-ci ilin dövlət büdcəsinə yenidən baxılması (dürüstləşmə) və digər məsələlər geniş müzakirə olunub.

İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun və maliyyə naziri Samir Şərifovun, eləcə də Mərkəzi Bankın sədri Taleh Kazımovun məruzələri dinlənilib.

2022-ci ilin dövlət büdcəsinə əlavə düzəlişlər hazırlanaraq baxılması üçün Prezidentə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Bakıda başlanan 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi Şuşada yekunlaşıb
















ADA Universitetində işə başlayan 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi iyunun 4-də Şuşa paneli ilə yekunlaşıb.

AZƏRTAC xəbər verir ki, Konqres iştirakçıları əvvəlcə Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olublar.

Sonra Şuşa Realnı Məktəbinin önündə konqresin bağlanış mərasimi keçirilib. Konqres Azərbaycan Respublikasının Milli Məclisi, Türkiyə Böyük Millət Məclisi, ADA Universiteti və Beynəlxalq Balkan Universitetinin birgə təşkilatçılığı ilə baş tutub.

Bağlanış mərasimində ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev çıxış edib. Rektor Hafiz Paşayev konqresin məhz Şuşada yekunlaşmasının önəmindən, məsuliyyətindən söhbət açaraq bu tədbirin torpaqlarımızın azadlığı uğrunda canından keçmiş qəhrəman şəhidlərin əziz xatirəsinə yüksək ehtiramın ifadəsi olduğunu deyib. ADA Universitetinin rektoru çıxışında Azərbaycan və Türkiyə arasındakı qardaşlıq münasibətlərindən bəhs edərək regionda cərəyan edən proseslərdə iki ölkənin fəal rol oynadığını vurğulayıb.

Konqresin yekun tədbirində həmçinin İstanbul Mədəniyyət Universitetinin nümayəndələri İhsan Fazlıoğlu və Zəhra Bilgin, Tokat Qaziosmanpaşa Universitetinin rektoru Bünyamin Şahin, Mərmərə Universitetindən Ömər Türkər və Azərbaycan Respublikası Milli Məclisinin deputatı Rafael Hüseynov çıxış ediblər.

Çıxışçılar tədbirin ikitərəfli akademik əlaqələrin daha da genişlənməsinə fayda verəcəyini bildirərək, bu formatda elmi müzakirələrin gələcəkdə də təşkilinin vacibliyini vurğulayıblar. Əlavə edilib ki, iyunun 2-də işə başlayan konqres çərçivəsində 70-ə qədər panel müzakirəsi baş tutub.

Daha sonra Azərbaycan incəsənətinin tanınmış nümayəndələri - Bülbülün, Üzeyir bəy Hacıbəylinin və Natəvanın güllələnmiş heykəllərinin qoyulduğu şəhər meydanına gələn iştirakçılar, həmçinin Qala divarlarını və Bülbülün ev-muzeyini ziyarət ediblər.

Sonda Cıdır düzünə gələn konqres iştirakçıları Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsini anıb, onlara Allahdan rəhmət diləyib, ruhlarına dualar oxuyublar.

Qonaqlara, həmçinin Cıdır düzü haqqında məlumat verilib. Bildirilib ki, Cıdır düzü dağlar qoynunda yerləşən şəhərin yeganə və ən böyük hamar ərazisidir. Elə bu səbəbdən də qədimdən burada Qarabağ igidlərinin cıdır yarışları, çövkən oyunları, Novruz və digər el şənlikləri keçirilib.

# Azərbaycanın enerji sektoru yeni inkişaf mərhələsinə qədəm qoyub



"Prezident İlham Əliyev Bakı Enerji Həftəsi çərçivəsində 1 iyunda keçirilmiş 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində Azərbaycanda enerji sahəsinin müstəqillik dövründə keçdiyi inkişaf yoluna, cari vəziyyətə və gələcək perspektivlərə dair fikir və mülahizələrini tədbir iştirakçıları ilə bölüşdü. O diqqətə çatdırdı ki, Azərbaycanın enerji strategiyasının, o cümlədən "Əsrin müqaviləsi"nin həyata keçirilməsində, ilk növbədə Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərləri mühüm rol oynamışdır. Daha sonra isə "Şahdəniz" qaz yatağının işlənməsi nəticəsində Azərbaycanın enerji sektorunda neftlə bərabər qaz istehsalı və ixracı da mühüm yer tutmuşdur. Qaz ixracında 2007-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ərzurum boru kəməri xüsusən ilkin mərhələdə vacib rol oynayıb. Hazırda isə Azərbaycanın təşəbbüsü ilə yaradılmış 3500 km-lik "Cənub qaz dəhlizi" bu sahədə ölkəmizin rolunu əhəmiyyətli dərəcədə artırmış, onu mühüm qaz ixracatçısına çevirmişdir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Sədr müavini Adil Əliyev bildirib.

Bu il "Cənub qaz dəhlizi" vasitəsilə ixrac olunacaq qazın həcminin 24 milyard kubmetrə çatacağının gözlənildiyini qeyd edən A.Əliyev deyib ki, bununla belə, xüsusilə Avropada Azərbaycan qazına tələbat artmaqdadır. "Lakin qaz sektoru spesifik sahədir, bir ay və ya bir neçə ay ərzində qaz istehsalını kəskin şəkildə artırmaq mümkün deyil. Bunu həyata keçirmək üçün danışıqlar aparmaq, müqavilələr imzalamaq və müvafiq işlər görmək, o cümlədən "Cənub qaz dəhlizi"nin ötürücülük qabiliyyətini genişləndirmək lazımdır. Ona görə də potensial tərəfdaşlar arasında sıx əlaqələndirmə, yaxın əməkdaşlıq və dialoq tələb olunur. Bakı Enerji Həftəsi bu məsələlər barədə fikir mübadiləsi aparmaq baxımından əlverişli platformadır. Çünki burada maraqlı hökumət və dövlətlərin rəsmiləri, ixtisaslaşmış şirkətlərin nümayəndələri iştirak edir", - deyən parlament Sədrinin müavini əlavə edib ki, Azərbaycan iri enerji şirkətləri və müxtəlif ölkələr ilə bu sahədə uzunmüddətli, etibarlı və səmərəli əməkdaşlıq və tərəfdaşlıq təcrübəsinə malikdir.

Adil Əliyev xatırladıb ki, ABŞ və Böyük Britaniya Azərbaycanın yürütdüyü enerji siyasətini daim dəstəkləyib. Britaniyanın bp şirkəti Azərbaycan üçün strateji tərəfdaş və aparıcı investordur. Eləcə də Avropa İttifaqı ölkələri və Avropa Komissiyası Azərbaycanla enerji sahəsində yaxından və məhsuldar tərəfdaşlıq qurublar. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və Asiya İnfrastruktur və İnvestisiya Bankı "Cənub qaz dəhlizi"nin maliyyələşməsində iştirak ediblər. Xüsusilə qeyd edilməlidir ki, enerji sahəsindəki uğurlu tərəfdaşlıq Azərbaycanın Türkiyə və Gürcüstanla münasibətlərini yüksək səviyyəyə qaldırıb. Beləliklə, yürüdülən enerji siyasəti Azərbaycanın xarici siyasətinə və beynəlxalq münasibətlərinin də uğurlu inkişafına ciddi töhfə verib.

Milli Məclis Sədrinin müavini deyib ki, Azərbaycan enerji sahəsində əldə etdiyi uğurlarla kifayətlənmir, yeni perspektivləri inkişaf etdirmək əzmi və iradəsi göstərir. Dördüncü Sənaye İnqilabının gətirdiyi yenilik, fürsət və imkanlardan enerji sektorunda bəhrələnmək Azərbaycanın iqtisadi prioritetləri sırasındadır. Bu baxımdan Azərbaycan bərpaolunan enerji mənbələrinin inkişafına xüsusi əhəmiyyət verir və bu istiqamətdə xarici tərəfdaşlarla artıq böyük layihələrə start verilib. "ACWA Power" və "Masdar" kimi enerji şirkətləri Azərbaycanda günəş və külək enerjisi stansiyaları inşa edirlər. bp şirkəti ilə işğaldan azad edilmiş Cəbrayıl rayonunda bərpaolunan enerji layihəsinin həyata keçirilməsi ilə bağlı danışıqlar aparılır. Eləcə də Xəzər dənizinin Azərbaycan sektorunun nəhəng bərpaolunan enerji potensialının və işğaldan azad edilmiş digər ərazilərin, o cümlədən Kəlbəcər və Laçın rayonlarının bərpaolunan enerji potensialının reallaşdırılması nəzərdə tutulur. Bu layihələr Azərbaycan iqtisadiyyatının enerjiyə artan tələbatını qarşılamaqla yanaşı, xaricə elektrik enerjisi ixracının həcmini də əhəmiyyətli surətdə artırmağa imkan verəcək.

Çıxışında Prezident İlham Əliyev qeyd etdi ki, Zəngəzur təkcə nəqliyyat dəhlizi deyil, həm də enerji dəhlizi kimi çıxış edə bilər. Enerji sektorunun şaxələndirilməsi nəticə etibarilə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə töhfə verəcək.

Beləliklə, Prezident İlham Əliyevin çıxışı zamanı verdiyi bəyanatlar və onların praktik təzahürləri, görülən işlər və onların ilkin nəticələri Azərbaycanın enerji sektorunun inkişafında yeni mərhələyə qədəm qoyduğu qənaətinə gəlməyə əsas verir.

# *Cahid BAĞÇI:* "Beynəlxalq Sosial Elmlər Konqresi Azərbaycan-Türkiyə əlaqələrini yeni müstəviyə daşıdı"

"Azad Şuşada mövzusu Qarabağla bağlı olan 7-ci Sosial Elmlər Konqresini yekunlaşdırdıq. Bu, sosial elmlər və Azərbaycan tarixində ən önəmli konqreslərdən biri idi".

Bunu AZƏRTAC-a müsahibəsində Türkiyənin Azərbaycandakı səfiri Cahid Bağçı söyləyib.

Konqresin mənəvi dəyərinin olduğunu qeyd edən səfir deyib ki, bu gün dindən, tarixdən, mədəniyyətdən, keçmişdən danışıldı. Çıxışçılar təhlillərini, müşahidələrini bölüşdülər.

"Bu gün Şuşada keçirilən "İNCSOS-Qarabağ" 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi Azərbaycan-Türkiyə əlaqələrini yeni müstəviyə daşıdı. Biz istərdik ki, iki ölkənin elm adamları bir araya gələrək əməkdaşlığı daha da genişləndirsinlər", - deyə C. Bağçı vurğulayıb.

# İlham Əliyevin qlobal nüfuzu Azərbaycana beynəlxalq etimadı yüksəldir

*Əvvəli 1-ci səh.*




## Cozef BAYDEN:

### "Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyi və suverenliyinə öz dəstəyini bir daha təsdiq edir"

Müstəqillik Günü ilə bağlı Prezident İlham Əliyevin ünvanına ilk təbrik məktubunu göndərən dövlət başçısı ABŞ Prezidenti Cozef Baydendir. Öncə onu qeyd edək ki, Azərbaycan-ABŞ münasibətləri bu gün müxtəlif sahələri əhatə edir. Siyasi, iqtisadi və digər sahələrdə iki dövlət arasında əməkdaşlıq formatları mövcuddur. Demokratları və respublikaçıları təmsil etməsindən asılı olmayaraq, ABŞ-a rəhbərlik etmiş bütün prezidentlər və onların administrasiyaları Azərbaycanla münasibətlərə daim ehtiramla yanaşıblar.

Eyni mövqeni Bayden Administrasiyası da nümayiş etdirir. Müstəqillik günü ilə bağlı təbrik Cozef Baydenin 2022-ci il ərzində İlham Əliyevə göndərdiyi ikinci məktubdur. Məktubda respublikamızın beynəlxalq məsələlərlə bağlı mövqeyi, qlobal təhlükəsizliyə dair fəaliyyəti təqdir olunur. Məktubun əsas məqamlarından biri ABŞ Prezidentinin 30 il ərzində enerji mənbələrinin şaxələndirilməsi və beynəlxalq təhlükəsizlik sahələrində Azərbaycanla əməkdaşlığa verdiyi yüksək dəyərdir. ABŞ Azərbaycanın enerji siyasətində yer alan əsas tərəfdaşlardan biridir. Bu sahədə əlaqələr strateji xarakter daşımaqla həm Bakının, həm də Vaşinqtonun maraqlarına cavab verir. ABŞ-ın sabiq prezidentləri də Azərbaycanın qlobal enerji təhlükəsizliyinə verdiyi töhfələri hər zaman yüksək qiymətləndiriblər. Bu məktub isə ondan xəbər verir ki, Ağ evin indiki rəhbərliyi də Azərbaycanın enerji resurslarının Avropa və dünya bazarlarının təhlükəsizliyinin təmin olunması və sabitləşdirilməsindəki roluna mühüm əhəmiyyət verir.

ABŞ Prezidentinin Azərbaycanın Ukraynanın suverenliyinə verdiyi dəstəyi və bu ölkəyə göndərdiyi humanitar yardımları yüksək qiymətləndirməsi, terrorizmə qarşı qlobal mübarizəyə verdiyi əhəmiyyətli töhfələri təqdir etməsi Azərbaycanın qlobal məsələlərdəki qətiyyətli mövqeyinə olan ehtiramın təzahürüdür. Bütövlükdə ABŞ Prezidentinin məktubu ondan xəbər verir ki, Ağ ev hazırkı gərgin beynəlxalq münasibətlər sistemində də Prezident İlham Əliyevin qətiyyətli siyasi kursunu təqdir edir.

Eyni zamanda bu məktub onu göstərir ki, ABŞ İkinci Qarabağ müharibəsində qələbə qazanan Azərbaycanın regionda yaratdığı reallıqları bölüşür. Cozef Baydenin "İndi Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün mühüm imkana bəslənən ümid zamanıdır. Amerika Birləşmiş Ştatları bütün Qafqaz və trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan ilə Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə və Azərbaycanın iqtisadi, nəqliyyat və insanlararası əlaqələrinin qurulmasına kömək etməyə hazırdır" deyə yazması göstərir ki, Vaşinqton İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni reallıqları qəbul edir və dəstəkləyir.

Məktubda xüsusi qeyd olunan məsələlərdən biri də ABŞ-ın Azərbaycanın müstəqilliyinə və suverenliyinə dəstəyinin ifadə olunmasıdır. Bu, ABŞ-ın ölkəmizlə münasibətlərə verdiyi yüksək önəmin və Azərbaycanın Cənubi Qafqazdakı aparıcı mövqeyinə dəstəyinin təcəssümüdür. Eyni zamanda məktubda o da bəyan olunur ki, ABŞ qarşıdan gələn illər və onilliklərdə Azərbaycanla münasibətləri daha da genişləndirmək arzusundadır.

## Vladimir PUTİN:

### "Ölkənizin sosial-iqtisadi inkişafda qazandığı uğurlar hamı tərəfindən qəbul edilib"

Azərbaycanla Rusiya arasında əlaqələr son dövrlərdə daha da möhkəmlənən dövlətlərarası münasibətlərə, dostluğa və mehriban qonşuluğa əsaslanır. Xüsusən son illərdə əlaqələr yüksələn xətt üzrə daha sürətlə inkişaf edib, dövlət başçılarının qarşılıqlı səfərləri əməkdaşlığın genişlənməsinə güclü təkan verib. Prezidentlərin siyasi iradəsi və birgə səyləri bütün sahələrdə tərəfdaşlığın genişlənməsi üçün möhkəm zəmin yaradıb. Hazırda Azərbaycan-Rusiya münasibətləri siyasi sferadan tutmuş iqtisadi, mədəni, humanitar və hərbi sahələrə qədər geniş spektri əhatə edir.

Bu ilin fevralında Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin imzaladıqları "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" isə iki dövlət arasındakı əlaqələrə yeni siyasi məzmun qatdı. Bəyannamə tərəflər arasında bərabərhüquqlu münasibətləri yüksək səviyyədə tənzimləyən sənəddir, hər iki tərəfin üzərinə mühüm öhdəliklər qoyur. Sənədin ana qayəsi ondan ibarətdir ki, hər iki ölkə müttəfiqlik fəaliyyətini bir-birinin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, güc tətbiq etməmək, müttəfiqlik münasibətlərinə xələl gətirən hərəkətlərdən, eləcə də bir-birinə qarşı yönəlmiş hərəkətlərdən çəkinmək öhdəliyi götürürlər.

Bu bəyannamə Rusiyanın Azərbaycanla əlaqələrə verdiyi yüksək önəmin təzahürüdür. Vladimir Putinin Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubunda bütün bu məsələlər bir daha öz əksini tapır. Eyni zamanda bu məktub göstərir ki, Azərbaycanın uğurları, qlobal məsələlərə verdiyi töhfələr Rusiyada da yüksək qiymətləndirilir. Məktubda deyilir: "Ölkənizin sosial-iqtisadi inkişafda qazandığı uğurlar hamı tərəfindən qəbul edilib. Azərbaycan dünya arenasında haqlı nüfuz qazanıb, beynəlxalq gündəliyin bir çox aktual məsələlərinin həllində mühüm rol oynayır.

Rusiya-Azərbaycan münasibətlərinin yüksək səviyyəsini məmnunluqla qeyd edirik. Fevral ayında imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə, heç şübhəsiz, bütün sahələrdə ikitərəfli əlaqələrin keyfiyyətcə yüksəlməsinə şərait yaradacaq. Bu, dost xalqlarımızın mənafelərinə tam cavab verir".

## Rəcəb Tayyib ƏRDOĞAN:

### "Əlaqələrimizi Şuşa Bəyannaməsinə uyğun olaraq müttəfiqlik iradəsi ilə gücləndirdiyimizə görə məmnunluq hissi keçirirəm"

Məzmununa və miqyasına görə beynəlxalq münasibətlər sistemində Azərbaycan-Türkiyə əlaqələrinin analoqunu tapmaq mümkün deyil. Tarixin sınaqlarından çıxan, dərinləşən bu münasibətlərin hansı səviyyədə olması Vətən müharibəsində özünü daha yaxından göstərdi. Savaş günlərində Türkiyə ictimaiyyəti də qələbəyə köklənmişdi. Müharibə zamanı Türkiyənin siyasi-hərbi rəhbərliyi birmənalı şəkildə Azərbaycanın yanında oldu, ölkəmizin haqlı mövqeyini, ərazi bütövlüyünü qətiyyətlə müdafiə etdi. Bu ölkənin siyasi və hərbi rəhbərliyi birmənalı və qəti şəkildə Azərbaycanı dəstəkləyən bəyanatlar verdilər. Ermənistanın təəssübünü çəkən siyasi dairələr gördülər ki, Azərbaycan tək deyil.

Vətən müharibəsi qardaşlığımızı daha da möhkəmləndirdi, sarsılmaz etdi. Türk dünyasının öndərləri olan Heydər Əliyevin "Bir millət iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamları bir daha öz təsdiqini tapdı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubu da elə bu ovqatda idi. "Bu mühüm və əlamətdar ildönümündə Türkiyə kədərini öz kədəri, sevincini öz sevinci kimi qəbul etdiyi qardaş Azərbaycanın haqlı qürurunu və həyəcanını ürəyində böyük xoşbəxtlik hissi ilə duyur. "Bir millət, iki dövlət" şüarı ilə davam etdirdiyimiz mükəmməl səviyyədəki əlaqələrimizi Şuşa Bəyannaməsinə uyğun olaraq müttəfiqlik iradəsi ilə gücləndirdiyimizə görə məmnunluq hissi keçirirəm. Ortaq səylərimiz, nümunəvi həmrəyliyimiz və sarsılmaz qardaşlığımızın keçmişdə olduğu kimi, gələcəkdə də regionumuzda sülhün, rifahın və sabitliyin ən böyük təminatçısı olmaqda davam edəcəyinə ürəkdən inanıram", - deyə Türkiyə Prezidenti yazır.

## Si CİNPİN:

### "Çin-Azərbaycan münasibətləri sağlam və sabit şəkildə inkişaf edir"

Coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, Azərbaycan və Çin dövlət başçılarının siyasi iradəsi və dostluq münasibətləri iki ölkə arasında qarşılıqlı əlaqələrin inkişafına əlverişli zəmin yaradıb. Təsadüfi deyil ki, əhalisinə görə dünyanın ən böyük dövləti olan, eyni zamanda olduqca güclü iqtisadiyyata malik, beynəlxalq siyasi proseslərdə öz mövqeyi ilə fərqlənən Çinlə Azərbaycanın əlaqələri dostluq və qarşılıqlı etimad üzərində qurulub.

Azərbaycan "Vahid Çin" siyasətinə hörmətlə yanaşır. Çin isə öz həllini tapmış Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləyib. İki dövlət arasında imzalanan birgə bəyannamədə də göstərilir ki, Azərbaycan "Vahid Çin" dövlətini tanıyır və Tayvan Çin ərazisinin ayrılmaz hissəsidir.

Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük iqtisadi tərəfdaşıdır. Eyni zamanda respublikamız Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyir. Xatırladaq ki, bir neçə il əvvəl Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumuna Cənubi Qafqazdan yalnız Prezident İlham Əliyev dəvət almışdı.

Müstəqillik günü münasibətilə Çin Xalq Respublikası hökuməti və xalqı adından, şəxsən öz adından Prezident İlham Əliyevə və dost Azərbaycan xalqına səmimi təbriklərini və ən xoş arzularını çatdıran Çin Xalq Respublikasının Sədri Si Cinpin məktubunda iki ölkə arasındakı münasibətlərlə bağlı yazıb: "Hazırda Çin-Azərbaycan münasibətləri sağlam və sabit şəkildə inkişaf edir. İki ölkə arasında qarşılıqlı siyasi etimad dərinləşir, "Bir kəmər, bir yol" müştərək layihəsi üzrə əməkdaşlıq fəal inkişaf edir və beynəlxalq aləmdə qarşılıqlı fəaliyyət getdikcə möhkəmlənir. Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verirəm".

Si Cinpin ikitərəfli dostluq və əməkdaşlıq əlaqələrinin ölkələrimizin və xalqlarımızın rifahı naminə yeni səviyyədə daha da inkişaf etdirilməsi üçün Prezident İlham Əliyevlə birgə səylər göstərməyə hazır olduğunu da bəyan edib.

## Sercio MATTARELLA:

### "Xalqlarımızı birləşdirən səmimi dostluğun gələcək illərdə daha da dərinləşməsi üçün yeni imkanlar yaranacaq"

Azərbaycanın xarici siyasətində İtaliya ilə münasibətlər xüsusi yer tutur. Təsadüfi deyil ki, iki dövlət arasındakı münasibətlər strateji xarakter daşıyır. Azərbaycan iqtisadiyyatına sərmayə yatıran xarici şirkətlər arasında xeyli sayda İtaliya şirkəti var. İtaliya həm də Azərbaycan neftinin ən böyük alıcısı, respublikamızın əsas iqtisadi tərəfdaşlarından biridir.

Azərbaycanla İtaliya arasında əlaqələrin möhkəmləndirilməsində Heydər Əliyev Fondunun böyük xidmətləri var. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Vatikanda və Romada həyata keçirilən layihələr həm İtaliya rəsmiləri, həm də Roma Papası tərəfindən böyük minnətdarlıq və razılıqla qarşılanır. Heydər Əliyev Fondu tərəfindən İtaliyada həyata keçirilən layihələrlə yanaşı təşkil olunan tədbirlər iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin və xalqlararası təmasların inkişafına böyük töhfə verir.

Azərbaycan və İtaliya arasında dostluq münasibətləri 44 günlük Vətən müharibəsi dövründə də rəsmi Roma tərəfindən açıq şəkildə bəyan olundu. İtaliyanın ayrı-ayrı rəsmi orqanlarında müxtəlif səviyyələrdə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti əks etdirən sənədlər qəbul olundu.

İki ölkə arasındakı yüksək siyasi və iqtisadi münasibətlər İtaliya Prezidenti Sercio Mattarellanın məktubunun məzmununda da öz əksini tapıb. Prezident İlham Əliyevə və dost Azərbaycan xalqına ən səmimi təbriklərini çatdıran İtaliya Prezidenti yazır ki, xalqlarımızı birləşdirən səmimi dostluğun gələcək illərdə daha da dərinləşməsi üçün yeni imkanlar yaranacaqdır: "Bir neçə gün əvvəl Bakı ilə Roma arasında diplomatik münasibətlərin qurulmasının 30 illik yubileyi münasibətilə göndərdiyiniz təbrik məktubuna görə zati-alinizə təşəkkürümü bildirir, bu münasibətlə mən də Sizə ən səmimi təbriklərimi yetirirəm. Çoxsaylı görüşlərimiz, xüsusilə də qarşılıqlı dövlət səfərlərimiz zamanı qeyd etdiyimiz kimi, birgə maraq kəsb edən bütün sahələrdə ikitərəfli münasibətlərimizdə əldə olunan bu yüksək səviyyəni vurğulamaqdan xüsusi məmnunluq duyuram. İkitərəfli tərəfdaşlığımız iqtisadi əməkdaşlığın inkişafından başlamış, siyasi, mədəni və sosial sahələri də əhatə etmişdir. Bu müsbət təcrübədən çıxış edərək əminliklə deyə bilərəm ki, xalqlarımızı birləşdirən səmimi dostluğun gələcək illərdə daha da dərinləşməsi üçün yeni imkanlar yaranacaqdır".

İtaliyanın Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlıq sazişinin imzalanmasına yönəlmiş danışıqlara bundan sonra da tam dəstəyini verəcəyini yazan Sercio Mattarella sentyabr ayında Prezident İlham Əliyevlə yenidən Romada görüşməkdən məmnun olacağını bildirib.

## İsxak HERSOQ:

### "Azərbaycan sabitlik adasıdır və əsrlər boyu yəhudi xalqı üçün isti, qonaqpərvər və təhlükəsiz bir ev olmuşdur"

Azərbaycanın yaxın dostluq münasibətlərində olduğu dövlətlərdən biri də İsraildir. İsrail dünyanın böyük dövlətləri sırasına daxil olmasa da, beynəlxalq münasibətlər sistemində özünün xüsusi yeri, çəkisi, nüfuzu və dəst-xəti var. İsrail dövləti ilə əlaqələrin inkişafına böyük önəm verilməsi ölkəmizin milli maraqlarının təmini baxımından müstəsna əhəmiyyətə malikdir.

Yəhudilər Azərbaycanda əsrlər boyu əmin-amanlıq şəraitində yaşayıb, digər azsaylı millətlər kimi, heç bir ayrı-seçkiliyə və diskriminasiyaya məruz qalmayıblar. İsrail dövəti isə artıq keçmişdə qalmış Dağlıq Qarabağ problemi ilə bağlı hər zaman ədalətli mövqe nümayiş etdirib, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. 44 günlük İkinci Qarabağ müharibəsində İsrailin rəsmi dairələri ədalətli və obyektiv mövqe tutdular. Təbii ki, bu kimi məsələlər iki dövlət arasındakı münasibətlərin inkişafına təsirini göstərib.

İsrail Prezidenti İsxak Hersoqun Prezident İlham Əliyevə məktubunda bu barədə deyilir: "Ölkələrimiz xalqlarımız arasında sıx əlaqələrə əsaslanan tarixi tellərə malikdir. Azərbaycan sabitlik adasıdır və əsrlər boyu yəhudi xalqı üçün isti, qonaqpərvər və təhlükəsiz bir ev olmuşdur. Burada, İsraildə Azərbaycan əsilli vətəndaşlar cəmiyyətimizə böyük töhfələr verirlər və onlar milli rəngarəngliyimizin mühüm hissəsidir. Bu iki icma xalqlarımız arasında canlı körpü rolunu oynayır, ikitərəfli əlaqələrimizi daha da gücləndirir".

## Arif ALVİ:

### "Əməkdaşlığımız Sizin müdrik rəhbərliyinizlə bundan sonra da dərinləşəcək və genişlənəcəkdir"

Azərbaycan Prezidentinə təbrik məktubları Pakistandan da gəlib. Bu ölkənin həm Prezidenti Arif Alvi, həm də Baş naziri Şahbaz Şərif 28 May - Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevi və xalqımızı təbrik ediblər.

Azərbaycanın yaxın dostluq münasibətlərində olduğu dövlətlərdən biri olan Pakistanla əməkdaşlıq 30 ildə sürətlə inkişaf edib. İki dövlət hər zaman beynəlxalq səviyyələrdə bir-birinin maraqlarını qətiyyətlə müdafiə ediblər ki, bu da münasibətlərin daha da möhkəmlənməsinə yol açıb. "Əminəm ki, siyasi, iqtisadi və mədəni sahələrdə ikitərəfli əməkdaşlığımız Sizin müdrik rəhbərliyinizlə bundan sonra da dərinləşəcək və genişlənəcəkdir", - deyə Pakistan Prezidenti məktubunda bildirib.

44 günlük Vətən müharibəsində Azərbaycan xalqı dost Pakistanın siyasi dəstəyini gördü. Azərbaycanın qələbəsi, torpaqlarını işğaldan azad etməsi Pakistanda da sevinclə qarşılandı. Dost ölkə Azərbaycanın haqq işini dəstəkləməkdən qürur duyur. Pakistanın Baş naziri Şahbaz Şərifin təbrik məktubunda bu barədə deyilir: "Pakistan Qarabağ müharibəsində Azərbaycanın haqq işini dəstəkləməkdən qürur duyur. Zati-alinizin Cənubi Qafqazda sülh və sabitliyin təşviqindəki şəxsi səylərini yüksək dəyərləndirirəm. Həmçinin hökumətinizə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin yenidən qurulmasında və bərpasında uğurlar arzulayıram. Pakistan bu sahədə öz köməyini göstərməyə və təcrübəsini bölüşməyə hazırdır".

*Prezident İlham Əliyevə 28 May - Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərən dövlət rəhbərlərinin sırası genişdir. Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabet, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud, Almaniya Prezidenti Frank-Valter Ştaynmayer, Yaponiyanın İmperatoru Naruhito, İspaniyanın Kralı VI Felipe, Hindistan Prezidenti Ram Nat Kovind, Fransa Prezidenti Emmanuel Makron, İran Prezidenti Seyid İbrahim Rəisi, Kanadanın General-Qubernatoru Meri Saymon və digər dövlət rəhbərlərinin Prezident İlham Əliyevə ünvanladıqları təbriklər Azərbaycana olan yüksək ehtiramın nümunələridir. Bu məktublar həm də onu göstərir ki, İlham Əliyevin qlobal nüfuzu Azərbaycana beynəlxalq etimadı yüksəldir.*

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Azərbaycan xalçası-ilmələrin rəqsi" adlı yeni xalça kolleksiyası təqdim olunub









**Heydər Əliyev Fondunun dəstəyi ilə milli-mənəvi dəyərlərimizin, mədəni irsimizin qorunub saxlanılması, inkişafı və tanıdılmasına yönələn daha bir layihə həyata keçirilib.**

AZƏRTAC xəbər verir ki, layihə çərçivəsində hazırlanan "Azərbaycan xalçası-ilmələrin rəqsi" adlı yeni xalça kolleksiyası və eyniadlı kitab iyunun 3-də Heydər Əliyev Mərkəzində təqdim edilib.

"Azərbaycan xalçası-ilmələrin rəqsi" kolleksiyasına daxil olan əsərlər barədə ətraflı məlumat isə eyniadlı kitabda yer alıb. Nəşrdə oxuculara Azərbaycanda xalça sənətinin tarixi, qədim sənətin yaşadılması üzrə dövlət tərəfindən görülən tədbirlər, yeni kolleksiyanın ərsəyə gəlməsi prosesi barədə materiallar təqdim olunur.

Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bildirib ki, Azərbaycanda xalçaçılıq sənəti əsrlər boyu xalqın məişət və mədəniyyətinin ayrılmaz hissəsi olub və bu günümüzə qədər gəlib çatıb. Prezident İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırıqları və qayğısı nəticəsində Azərbaycanda xalçaçılıq sənətinin inkişafı sahəsində bir sıra mühüm sənədlər qəbul edilib, müxtəlif layihələr həyata keçirilib.

Qeyd edib ki, "Azərbaycan xalçası-ilmələrin rəqsi" adlı yeni xalça kolleksiyası və eyniadlı kitabın təqdimatı 8 il ərzində ərsəyə gəlib. Bildirib ki, kolleksiya Heydər Əliyev Mərkəzində ilk dəfədir nümayiş olunur: "Biz bu kolleksiyanın bir hissəsini öncədən Parisdə, UNESCO-nun baş qərargahında daha sonra Kann şəhərində təqdim etmişik. Bu böyük bir kolleksiyadır".

O, kolleksiyanın hazırlanmasında əməyi keçən bütün insanlara təşəkkürünü bildirib, daha sonra toxucu xanımları səhnəyə dəvət



edib. Bildirib ki, toxucu xanımlar 8 il bu əziyyətə qatlaşsalar da, nəticə göz qabağındadır.

Anar Ələkbərov bu işlərin həyata keçirilməsinə qayğısını əsirgəməyən Mehriban Əliyevaya təşəkkürünü bildirib. O, həmçinin layihənin ərsəyə gəlməsində Xalq rəssamı Eldar Mikayılzadənin əməyini xüsusi vurğulayıb.

Xalq rəssamı Eldar Mikayılzadə bildirib ki, dekorativ-tətbiqi sənətimizin, xüsusilə xalçalarımızın bədii xüsusiyyətlərini və texnologiyalarını dərindən bilən görkəmli sənətkar Xalq rəssamı Lətif Kərimov Azərbaycan xalçalarına əsl mənada ikinci ömür verib, onların dünyada tanıdılmasına böyük əmək sərf edib: "Lətif Kərimov xalçaçılıq sənətinin başlıca bədii istiqamətlərini, onların üslub xüsusiyyətlərini müəyyən edib. Azərbaycan xalçalarının dəqiq təsnifatını verib ki, bu da onun "Azərbaycan xalçası" üçcildlik fundamental kitabında öz əksini tapıb".

Bildirib ki, Heydər Əliyev Fondunun qədim sənətə yeni nəfəs verən kolleksiyasındakı "Yaranış", "Şikargah", "Xan ovu", "Cəng və barış", "Bəndi-rumi", "Şəbəkəli", "Adəm və Həvva, "Ağaclı", "Narlı", "Göllü", "Ləçək-turunc", "Dörd fəsil", "Tağlı", "Cəmadət" xalçaları, "Cənnət quşları" və "Cənnət bağı" dəstxalı - gəbələri bənzərsiz sənət nümunələri kimi ziyarətçilərin marağına səbəb olub. Kolleksiyadakı xalçaların hər biri naxışları, ornamentləri vasitəsilə ziyarətçiyə öz mesajlarını çatdırır. "Yaranış" əsərində isə xammalın hazırlanmasından xalçanın tam ərsəyə gəlməsinə kimi bütün mərhələlər parlaq bədii dillə öz əksini tapıb. Xalçanın aşağı hissəsində əks olunan oturacaq və onun üzərindəki müxtəlif rəngli saplar, çayı içilmiş stəkanlar, qənddan, üzərlik, Novruz atributları və digər əşyalar təqdimatına görə çox təbii görünür. Oturacağın altında "gizlədilmiş" süpürgə, bir neçə cüt başmaq, ən nəhayət, yaranmış sakitlikdə mürgüləyən pişiyin təsviri ağır işdən sonra olan rahatlığı təcəssüm etdirir. Əlvanlığı ilə gözoxşayan xalçada 20 cür ipək sapdan istifadə olunub.

Qeyd edək ki, yeni kolleksiyanın yaradılmasında Azərbaycanın Xalq rəssamı Eldar Mikayılzadə başda olmaqla, 6 rəssam və 14 toxucu iştirak edib. Təbii boyalarla rənglənən xalçalar ipək və yundan toxunub. Burada 170 rəng və çalarlardan istifadə olunub. Müxtəlif rəng çalarlarının əldə olunması üçün toxucular saç kimi nazik ipək ipləri açaraq bir neçə rəngdən yeni bir ip yaradıblar. Xalçaların ərsəyə gəlməsində ecazkar Şəki Xan Sarayı, Şəkixanovların evi, şəbəkələr, təbiətdən gələn naxışlar, zəngin flora və faunamız, təkəlduz tikmələri, zərif zərgərlik məmulatları tükənməz ilham mənbəyi olub, ilmə-ilmə xalçalarda əbədiləşərək öz əksini tapıb.

Xalq rəssamı Eldar Mikayılzadə xalça ənənələrinin kanonları çərçivəsində özünəməxsus üslubda sənət əsərləri yaratmış novatordur. Azərbaycan xalçaçılıq sənətində fəlsəfi mövzuya xüsusi diqqət yetirən rəssamın bədii prinsiplərinin və yaradıcı tərzinin formalaşmasında müəllimlərinin - tanınmış xalçaçı-rəssam Lətif Kərimov və görkəmli fırça ustası Səttar Bəhlulzadənin böyük təsiri olub. Ornamental formanı mahir bilməsi, kompozisiyaların yaradılmasında qüsursuz harmoniya hissi, xalça sənəti üçün ən çətin sayılan əsl rəngkar palitrası, eləcə də təkmilləşdirdiyi toxuculuq texnikası müəllifə əsl sənət nümunələri yaratmağa imkan verir.

## *Leyla ABDULLAYEVA:* "RİA-Novosti" agentliyinin bu addımı Rusiyanın postmünaqişə mərhələsində bölgədə sülh yaratmaq səylərinə kölgə salır"

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva, özünü Azərbaycan ərazilərindəki qanunsuz qurumun qondarma naziri kimi təqdim edən Artak Beqlaryanın Rusiyanın "RİA-Novosti" agentliyinə müsahibəsinin şərh edilməsi ilə bağlı KİV-in sualını cavablandırıb.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva Rusiyanın dövlət informasiya agentliyinin Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxış edən, böhtan xarakterli və separatçı meyilləri təşviq edən məlumatları yaymasını Azərbaycanla Rusiya arasında mövcud olan dostluq münasibətlərinin ruhuna uyğun gəlmədiyini bildirib və bunun ciddi təəssüf doğurduğunu vurğulayıb.

Bildirilib ki, dövlət informasiya agentliyinin bu addımı, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Dostluq, təhlükəsizlik və strateji tərəfdaşlıq haqqında 1997-ci il tarixli Saziş və Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında 2022-ci il tarixli Bəyannamənin "BMT Nizamnaməsinin prinsiplərinə və bir-birlərinin suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş istənilən fəaliyyətdən çəkinmək", habelə "separatçılıq təhdidlərinə qarşı mübarizə" müddəaları ilə ziddiyyət təşkil edir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi qeyd edib ki, "RİA-Novosti" agentliyi tərəfindən bu təxribatçı açıqlamaların tirajlanması, həmçinin Rusiya Federasiyasının postmünaqişə mərhələsində bölgədə sülh yaratmaq səylərinə kölgə salır.

## Kanada nümayəndə heyəti Gəncədə erməni terroru qurbanlarının xatirəsini anıb

İyunun 4-də Kanadanın Milli Etnik Mətbuat və Media Şurasının idarə heyətinin üzvü, Kanada Birləşmiş İcmalarının Mətbuat Məşvərət Şurasının rəhbəri Toni Ruprext, jurnalist İnqa Söney-Kelner, Kanada Türk Federasiyasının xarici əlaqələr üzrə konsul əlaqələndiricisi İsmayıl Vataneri və "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin rəhbəri Lalin Həsənova Gəncə şəhərinə səfər ediblər.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində qonaqlar Gəncədə Ermənistanın günahsız mülki insanlara qarşı raket hücumları ilə törətdiyi cinayət yerini ziyarət edib, həlak olan şəhər sakinlərinin xatirəsini anıblar.

Nümayəndə heyəti erməni terroru nəticəsində həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq əraziyə gül dəstələri düzüblər.

Məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri 44 günlük Vətən müharibəsində beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub.



Düşmənin Azərbaycanın ikinci böyük şəhəri, yarım milyon əhalisi olan və münaqişə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla, 26 mülki şəxs həlak olub, 142 nəfər isə yaralanıb. Şəhərdə mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Sonra qonaqlar "Gəncəsənət" - Gəncə incəsənət, sənətkarlıq və yaradıcılıq sərgi-yarmarkasını, Xan bağını və dahi şair Nizami Gəncəvinin məqbərəsini ziyarət ediblər.

## Şuşalı pensiyaçılar doğma şəhərdə səfərdə olublar

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun təşkilatçılığı ilə şuşalı pensiyaçılar Şuşada səfərdə olublar.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, "Şuşa ili" çərçivəsində təşkil edilən ikigünlük səfər zamanı pensiyaçılar şəhərdəki Yuxarı Gövhər ağa məscidini, məşhur sənətkar Bülbülün ev-muzeyini, eləcə də XVIII əsr Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsini ziyarət ediblər. Onlar səfər müddətində dünyaya ilk qədəmlərini basdıqları və ilk kəlmələrini söylədikləri doğma yerlərdə, uşaqlıqlarını, gəncliklərini, atalı-analı, qayğısız günlərini yaddaşlarında oyadan doğma şəhərdə - 30 ildən bəri xatirələrində sevə-sevə yaşatdıqları, doğma məkan və ünvanları gəziblər.

Axan sevinc göz yaşları, Vətən, Qarabağ, Şuşa sevgisi ilə dolub-daşan, saf Şuşa havasından fərəhlə dolub-daşan, riqqətə gələn ürəkləri ilə doğma yurdun hər qarışını dönə-dönə seyr ediblər.

Səfər Cıdır düzündə təşkil olunan toplantı ilə başa çatıb.

# Naxçıvan gerçəkliklərindən bəhs edən "NAXÇIVAN GERÇƏKLİKLƏRİ"

**Bu günlərdə "Azərbaycan" qəzetinin baş redaktor müavini, Əməkdar jurnalist İxtiyar Hüseynlinin "Naxçıvan gerçəklikləri" adlı kitabı ilə tanış olmaq imkanı yarandı. Kitabın annotasiyasında yazıldığı kimi, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının müasir inkişafının mühüm istiqamətləri, genişmiqyaslı quruculuq prosesi və bu diyarın əsas nailiyyətləri burada ətraflı işıqlandırılıb.**




İmzası geniş oxucu auditoriyasına yaxşı məlum olan, təhlili yazıları ilə diqqəti cəlb edən İxtiyar Hüseynlinin "Naxçıvan gerçəklikləri" kitabı onun səfər qeydlərinin doğurduğu təəssüratlarının mükəmməl nümunələridir. Naxçıvan gerçəklikləri bu diyara ayaq basan hər bir insanı təəccübləndirir. Bu gerçəklikləri görmək üçün Naxçıvana gələn çoxlu insanlara rast gəlmək mümkündür.

Bəs qısa müddətdə bu gerçəkliklər necə yaradılmışdır? Bütün sahələrdə davamlı, dinamik, genişmiqyaslı dəyişikliklər necə baş vermişdir? Blokada şəraitində bunlar necə əldə edilmişdir? Cavabı axtarılan suallar çoxdur, çoxdan da çox. Yüzlərlə sənaye müəssisəsinin yaradılması, iki min kilometrə qədər asfalt yolun çəkilməsi, əkin sahələrinin 2 dəfədən çox artırılması, idxaldan ixraca keçilməsi, 100 faizlik qazlaşma, 1 SES-dən 11 elektrik stansiyalarına keçilməsi, bərpaolunan enerjinin ilbəil artırılması, yaşıllaşdırmanın 6 faizdən 20 faizə, xüsusi mühafizə olunan ərazilərin 27 faizə çatdırılması, ərzaq və enerji təhlükəsizliyinin təmin edilməsi... lider ölkənin lider bölgəsinə yüksəldilməsi nəyin hesabına olmuşdur?

Akademik, Milli Məclisin deputatı İsa Həbibbəylinin ön söz müəllifi, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqovun redaktoru olduğu "Naxçıvan gerçəklikləri" kitabında bu nailiyyətlərin əldə olunmasının çətin və məsuliyyətli, eyni zamanda şərəfli yolu müfəssəl araşdırmalarla, peşəkar jurnalist yanaşması ilə şərh olunur. Göstərilir ki, Heydər-İlham Əliyev epoxasında müstəqil Azərbaycanda həyata keçirilən uğurlu dövlət siyasətinin işığında Ali Məclisin Sədri Vasif Talıbovun məqsədyönlü fəaliyyəti ilə muxtar respublikanın kompleks inkişafı təmin edilmişdir.

Hər bir muxtar respublika sakininin qəti və obyektiv fikridir ki, Naxçıvan tarixin heç bir mərhələsində indiki qədər abad, güclü, müasir və inkişaf səviyyəsində olmamışdır. Naxçıvan indi çox böyük nümunə gücündə olan lider bölgədir. Bunu rəsmi statistik məlumatlar təsdiq etdiyi kimi, hər bir sakin, qonaq da görür və yüksək dəyərləndirir.

"Naxçıvan gerçəklikləri" kitabının müəllifi də Naxçıvan səfərində bütün bunları müşahidə etmiş və ürək genişliyi ilə qələmə almış, nüfuzlu rəsmi dövlət qəzetimizdə jurnalist təəssüratlarına çevirmişdir. Sadəcə kitabdakı başlıqlara baxmaqla təəssüratların hansı səviyyədə olması haqqında fikir yürütmək olar: "Naxçıvanın inkişaf modeli", "Təhsilin inkişafında lider", "Naxçıvanda inkişaf kənddən başlayır", "Made in Nakhchivan", "Şanlı Naxçıvanın fədakar salnaməçiləri".

Kitaba ön söz yazan akademik İsa Həbibbəyli fikrini belə izah edir: "Əməkdar jurnalist İxtiyar Hüseynlinin "Naxçıvan gerçəklikləri" kitabı sözün geniş mənasında Azərbaycan reallıqları haqqında yazılmış kitabdır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı ölkəmizin müasir yüksəlişinin göstəricilərindən biri olduğu üçün İxtiyar Hüseynli haqlı olaraq "Naxçıvan gerçəklikləri"ni müstəqil dövlətimizin inkişafının faktları və hadisələri səviyyəsində təqdim edir... Müəllif Naxçıvan Muxtar Respublikasında qazanılan nailiyyətləri ölkəmizin digər regionları ilə müqayisəli şəkildə təqdim edir, blokada şəraitində fəaliyyət göstərən bu diyarda böyük əzmkarlıq sahəsində əldə edilmiş mühüm nəticələri oxuculara çatdırır..."

Müəllif "Naxçıvanın inkişaf modeli" bölməsində lider ölkənin lider bölgəsini Prezident İlham Əliyevin sözləri ilə təqdim edir: "Muxtar respublika inkişafa görə Azərbaycanda liderdir... Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordçu bölgədir".

Rekordçu bölgənin rekord göstəriciləri rəqəmlərin köməyi ilə təqdim edilir və bu, oxucuda böyük inam yaradır. Belə ki, müstəqillik illərində muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi 69 dəfə, sənaye məhsulunun həcmi 117 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 15 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 141 dəfə, əsas kapitala yönəldilən vəsaitlər 348 dəfə, nəqliyyat sektorunda yük daşınması 27 dəfə, pərakəndə əmtəə dövriyyəsi 49 dəfə, əhali gəlirləri 61 dəfə artıb. Göründüyü kimi, artım faizlə yox, dəfələrlə baş vermişdir.

Kitabda çox haqlı olaraq muxtar respublikanın enerji təhlükəsizliyi önə çəkilir və qeyd edilir ki, vaxtilə çıraq işığında oturan Naxçıvan indi enerji ixracatçısıdır. Belə bir fakt da ciddi maraq doğurur: elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpaolunan enerji mənbələri hesabına ödənilir.

Müəllif muxtar respublikada əldə olunan nailiyyətləri həm təhlil edir, həm də faktlarla təqdim edir. Aydın olur ki, muxtar respublikada 384 adda məhsul istehsal edilir və 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Muxtar respublikada son illərdə 232 elm və təhsil ocağı, 642 mədəniyyət, səhiyyə, idman obyekti inşa olunub, 109 körpü, 352 inzibati bina, 61 nasos stansiyası, 328 subartezian quyusu tikilib. 98 min 775 iş yeri açılıb. 1346 istehsal və xidmət sahəsi yaradılıb. Ümumi daxili məhsulun həcmi 3 milyard manatı ötüb, 1 milyard 70 milyona yaxın sənaye məhsulu, 573,4 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib, 355 sosial və inzibati obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Kitabda Böyük Zəfərin qazanılmasında naxçıvanlı igidlərin qəhrəmanlıqlarına da geniş yer ayrılıb.

Naxçıvanın uğur formulu, onun mahiyyəti və bu formulun əsl zəmini aşağıdakı kimi təhlil edilir və xarakterik cəhətləri göstərilir: "Prezident İlham Əliyevin regionun geosiyasi vəziyyətini, xüsusi çətinliklərini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikasına daim böyük diqqət və qayğı göstərməsi buradakı inkişafı ardıcıl olaraq stimullaşdırır. Naxçıvandakı böyük və hərtərəfli inkişaf həm də yorulmaz fəaliyyətin və məqsədyönlü idarəetmənin qanunauyğun nəticəsidir. Eyni zamanda Naxçıvan əhalisinin dövlətçilik və quruculuq proseslərində yorulmadan fəal iştirakı paralel şəkildə davam etdirməsi də Naxçıvanın yüksəlişini təmin edir".

Müəllifin çox maraqlı təhkiyə üsulu hər fəsildə diqqət çəkir. "Təhsilin inkişafında lider" fəslində "Naxçıvanın ucqar dağ kəndlərinin şagirdləri bilik səviyyəsinə görə Azərbaycan miqyasında necə davamlı rekordçu olurlar?" - sualına cavab axtarılır, maraqlı müqayisələrlə, təhlillərlə məsələyə cavab verilir. Müəllif ilk növbədə bunu təhsillə, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə göstərilən dövlət qayğısı ilə əlaqələndirir: "Naxçıvanda ən ucqar yaşayış məntəqəsində, ən hündür dağ kəndində belə iki-üçmərtəbəli, tam isidilən, dərslikdən kompüterə, idman zalından laboratoriyalara qədər müasir təhsil üçün tələb olunan bütün vasitələrlə təmin olunan orta məktəblər tikilib. Hələ kəndlərdə üçmərtəbəli musiqi məktəblərini görmək də böyük təəccüb yaradır". Müəllif fikrini faktların köməyi ilə əsaslandırır. Aydın olur ki, son onilliklərdə muxtar respublikada 200-dən artıq məktəb binası istifadəyə verilib, hamısı da ən müasir səviyyədə. 53 mindən çox şagirdin təhsili və tərbiyəsi ilə 7257 müəllim məşğul olur. 5700-dən artıq kompüter və 650-dən artıq elektron lövhə şagirdlərin istifadəsinə verilib. Müxtəlif muzey və mərkəzlərdən deyilən interaktiv dərsləri 200-dən çox məktəbdə şagirdlər eyni zamanda dinləyirlər. 22 mindən çox şagird 103 ümumtəhsil məktəbində STEAM təhsilinə cəlb olunub... Bütün bunlardan sonra təhsildə qazanılan uğurlar həm faktlarla təqdim edilir, həm də təhlil edilir. Məsələnin mahiyyəti, qoyulan sualın cavabı istər-istəməz aydınlaşır.

Təhsildən danışarkən Naxçıvan Dövlət Universitetində əldə olunan nailiyyətlər də geniş təhlil edilir və Ümummilli Lider Heydər Əliyevin hələ vaxtı ilə dediyi bir fikri önə çəkilir: "Çox xoşbəxtəm ki, mən bu universitetin yaranmasının təməlini qoyanlardan biri və onun təşəbbüskarıyam. Böyük iftixar hissi keçirirəm ki, əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir. Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir. Naxçıvan Dövlət Universiteti isə Naxçıvan təhsilinin zirvəsidir". Prezident İlham Əliyev də Naxçıvan Dövlət Universitetinin inkişafından, dünyanın aparıcı ali təhsil müəssisələri ilə çox yaxşı işgüzar əlaqələrindən, nüfuzlu təhsil müəssisələrindən biri kimi bəhs etmişdir. Kitabda NDU-nun təhsil göstəricilərinə, yeni innovasiyaların tətbiqinə, beynəlxalq əlaqələrinə, əldə etdiyi elmi yeniliklərə geniş yer verilmişdir.

"Naxçıvanda inkişaf kənddən başlanır" məqaləsində kəndlərdə aparılan quruculuq işlərinə, əhalisinin rifah halının yaxşılaşdırılmasına, "smart-ağıllı model" tətbiqinə görə də Azərbaycanda lider, rekordçu bölgə olduğu qənaətinə gəlinmişdir. Dağ kəndlərində baş vermiş dəyişikliklər müəllifi yaxşı mənada təəccübləndirmiş və kitabda buna əhəmiyyətli yer vermişdir. Məlumdur ki, Naxçıvanda uzun illərdir inkişafın əsas prioriteti kimi kəndlər nəzərə alınır və bu sahəyə xüsusi diqqət yetirilir. Ona görə də Naxçıvan yalnız inkişaf dinamikası baxımından deyil, həm də kəndlərin abadlığına, quruculuğuna, əhalisinin rifahına, müasirliyinə, təminatına görə Azərbaycanda lider bölgədir. Ümumiyyətlə, muxtar respublika əhalisinin 65 faizi, yəni 300 minə yaxın insan kəndlərdə yaşayır. Ölkə Prezidenti cənab İlham Əliyevin təbirincə desək, muxtar respublikada Azərbaycanın liderlik nümunəsi yaradılıb. Bu liderlik kəndlərin nümunəsində özünü qabarıq göstərir.

"Made in Nakhchivan" bölməsində həmin marka ilə Naxçıvanda istehsal edilən çox çeşidli məhsulların dünyanın 22 ölkəsinə göndərilməsindən bəhs edilir. Dövlət qayğısı - sahibkar məsuliyyəti nəticəsində Naxçıvan məhsulları beynəlxalq sərgilərdə rəğbətlə qarşılanır. "Made in Nakhchivan" markası ilə 102 müəssisənin 171 növdə və 1330 çeşiddə beynəlxalq sərgilərdə nümayiş etdirilərək xarici bazarlara ünvanlanmasına və hazırlanmış məhsullarının regionda 21 modeldə avtomobil istehsal edilməsinə dair məlumatlar burada ardıcıl olaraq uğurlu sənayeləşdirmə layihələrinin həyata keçirilməsi ilə əlaqələndirilir. Təsadüfi deyildir ki, 2022-ci il Naxçıvan Muxtar Respublikasında "Sənayeləşmə ili" elan edilmişdir.

"Şanlı Naxçıvanın fədakar salnaməçiləri" bölməsi naxçıvanlı jurnalistlərin, mətbuat və nəşriyyat işçilərinin fəaliyyətlərinə həsr edilmişdir. Müəllif bu bölmədə jurnalistlərin peşəkarlığı və məhsuldar fəaliyyətlərini muxtar respublikada mətbuatın inkişafına göstərilən qayğı və onlar üçün yaradılmış əlverişli iş şəraiti ilə izah edir. Muxtar Respublikanın əsas rəsmi dövlət mətbuatını təmsil edən "Şərq qapısı" qəzetinin Azərbaycanda ən böyük binası, ən müasir texnologiyalara malik müstəqil olan mətbuat orqanı olaraq təqdim edilməsi də həmin istiqamətdə həyata keçirilən düşünülmüş siyasətin nəticəsidir. "Əcəmi" nəşriyyatı, Naxçıvan Televiziyası, "Kanal-35", "Naxçıvanın səsi" radiosu, "Nuhçıxan" İnformasiya Agentliyi, rayonlarda nəşr olunan qəzetləri Yeni Naxçıvanın nailiyyəti, yüksəliş, quruculuq salnaməsini yaradanlar kimi təqdim edir. Çünki salnaməçilərin yazdıqları gələcəyə ünvanlanan tarixdir.

Beləliklə, "Naxçıvan gerçəklikləri" Naxçıvan Muxtar Respublikasının həyatında son 30 ilə yaxın bir müddətdə baş verən əsaslı və ciddi dəyişikliklərdən bəhs edən, bu gerçəklikləri professional səviyyədə oxucuya çatdıran dəyərli əsərdir. Burada jurnalist müşahidələri ilə yanaşı, tədqiqat xarakterli ciddi ümumiləşdirmə və müqayisələrə də yer verilmişdir.

Kitabda müəllifin ilk fikirlərindən - "daim yüksəklikdə olan, torpağının altı tarixin möcüzələrini, üstü isə inkişafın möcüzələrini yaşadan, mistika ilə gerçəkliyi, ənənələrlə modernliyi, əzmkarlıqla nailiyyəti, zəhmətlə nəticəni, gedilən yolun uğur hesabatı ilə sabahın düzgün hədəflərini ləyaqətlə birləşdirən göz bəbəyimiz... Nuhçıxandayıq, Nəqşi-Cahandayıq, Naxçıvandayıq, muxtar respublikadayıq..." - başlamış, "möhtəşəm tarix, modern quruculuq, inkişafın liderliyi" - nəticəsinə qədər Naxçıvan həqiqətləri ürəkdən gələn dolğunluq və səmimiyyət ilə təqdim edilir.

Çünki ürəkdən gələn fikirlər ürəklərə yol tapır. "Naxçıvan gerçəklikləri" kitabı kimi...

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## 5 İyun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günüdür





# Su həm də bolluqdur

## Azərbaycan melioratoru əkinçinin ən yaxın köməkçisidir

Azərbaycanda hər zaman kənd təsərrüfatının yüksəlişi, məhsul bolluğunun yaradılması, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı digər amillərlə yanaşı, meliorasiya və su təsərrüfatının inkişafından, bu sahədə aparılan islahatlardan, böyük quruculuq işlərindən, geniş meliorasiya potensialının yaradılmasından asılı olmuşdur. Bu da səbəbsiz deyil. Ölkəmizin əsas kənd təsərrüfatı bazası sayılan Kür-Araz düzənliyinin ərazisi quraq və arid zonada yerləşdiyinə görə bu ərazidə suvarma aparılmadan, meliorasiya və su təsərrüfatını inkişaf etdirmədən kənd təsərrüfatı məhsullarının yetişdirilməsi mümkün deyil.

Bunu böyük uzaqgörənliklə qeyd edən və "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik" sözlərini tarixə yazmış müdrik şəxsiyyət, dünyaşöhrətli siyasətçi Ulu Öndər Heydər Əliyev meliorasiya və su təsərrüfatı sahəsini daim diqqət mərkəzində saxlamış, onun inkişafına xüsusi əhəmiyyət vermişdir. Azərbaycanda meliorasiya və irriqasiya işləri keçən əsrin əvvəllərində təşəkkül tapsa da, onun genişmiqyaslı, intensiv inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümumiyyətlə, Azərbaycanda həm keçmiş SSRİ dövründə, həm də müstəqilliyin ilk 10 ilində kənd təsərrüfatının inkişafı haqqında bir neçə tarixi qərarlar qəbul edilmiş, kompleks meliorasiya proqramları hazırlanmış və meliorasiya olunmuş torpaqlarda kənd təsərrüfatı istehsalının sabit şəkildə artırılması üçün mühüm tədbirlər işlənib həyata keçirilmişdir.

Hazırda isə Prezident İlham Əliyevin diqqəti sayəsində meliorasiya və su təsərrüfatı sistemi ölkə iqtisadiyyatının mühüm və ayrılmaz bir parçası kimi qazanılmış nailiyyətlərdə öz payı olan sahəyə, eyni zamanda başlanılmış genişmiqyaslı islahatların ünvanına çevrilmişdir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, tələb olunan həcmlərdə təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işlərinin davam etdirilməsi və digər sahələrdə müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, bütün maliyyə mənbələri hesabına 2004-2021-ci illərdə 4,6 min km uzunluğunda suvarma kanallarının, 3,4 min km uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidənqurulması və bərpası, 483 min ha sahədə torpaqların su təminatının və 307 min ha sahədə meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yerinə yetirilmiş, 204 min ha yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir. Mövcud torpaq mühafizə bəndlərinin 800 km-dən artıq hissəsi əsaslı surətdə hündürləndirilmiş və möhkəmləndirilmiş, çaylarda sel və daşqınlara qarşı 203 km muhafizə tədbirləri həyata keçirilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 3061 ədəd subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Ümumi sututumu 456 milyon kubmetr olan 4 su anbarı (Taxtakörpü, Şəmkir-çay, Tovuzçay, Göytəpə) tikilmiş, eləcə də ümumi sututumu 15,5 milyon kubmetr olan 3 su anbarı (Pirsaatçay, Zoğalavaçay, Ləvain) təmir-bərpa edilmişdir.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan Xanarx kanalının tikintisi 2006-cı ildə, Samur çayı üzərində yerləşən baş suqəbuledici qurğunun bərpası, Samur çayı yaxınlığında baş su durulducunun tikintisi, Samur-Abşeron kanalının ilk 50 km-lik hissəsinin və bu hissədə yerləşən uzunluğu 185,7 km olan təsərrüfatlararası kanalların yenidənqurulması işləri 2007-ci ildə başa çatdırılmışdır. Respublikanın 500 min ha suvarılan sahələrindən duzlu qrunt sularının Xəzər dənizinə axıdılmasını təmin edən Baş Mil-Muğan kollektorunun 3-cü hissəsinin tikintisi 2006-cı ildə başa çatdırılaraq Mil-Qarabağ kollektoru ilə birləşdirilmişdir.

Samur-Abşeron kanalının 50-ci kilometrliyindən suyun Taxtakörpü su anbarına verilməsi məqsədilə 2008-ci ildə tikintisinə başlanılmış uzunluğu 32 km olan Vəlvələçay-Taxtakörpü kanalının, ümumi sututumu 268,4 milyon kubmetr olan Taxtakörpü su anbarının (ümumi gücü 25 MVt olan su elektrik stansiyası ilə birlikdə) və uzunluğu 108 km-ə yaxın olan Taxtakörpü-Ceyranbatan kanalının tikintisi işləri 2013-cü ildə başa çatdırılmışdır.

15 noyabr 2014-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə açılış mərasimi keçirilmiş ümumi sututumu 164,5 milyon kubmetr olan Şəmkirçay su anbarının (ümumi gücü 24,4 MVt olan su-elektrik stansiyası ilə birlikdə) zonasında əkin sahələrini suvarma suyu ilə təmin edəcək 60,5 km uzunluğunda magistral kanalların tikintisi işləri 2015-ci ildə başa çatdırılmışdır.

Keçmiş sovetlər birliyi dövründən tikintisi yarımçıq qalmış Tovuz və Şəmkir rayonlarının 20000 hektara yaxın əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına və yeni suvarılacaq torpaqların istifadəyə verilməsinə imkan yaradan və ümumi sututumu 20 milyon kubmetr olan Tovuzçay su anbarının inşası 2016-cı ildə başa çatdırılmışdır.

Prezidentin ölkədə taxılçılığın, pambıqçılığın, tütünçülüyün, baramaçılığın və digər sahələrin inkişafı, eləcə də aqroparkların və iri təsərrüfatların yaradılması ilə əlaqədar verdiyi tapşırıqların icrası olaraq səhmdar cəmiyyət meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sahələrin genişləndirilməsi, sel və daşqın sularına qarşı mübarizə və digər istiqamətlərdə əvvəlki illərdə olduğu kimi, 2021-ci ildə də öz uğurlu fəaliyyətini davam etdirmişdir.

Aqroparkların, iri taxılçılıq, pambıqçılıq və digər təsərrüfatların yaradılması məqsədilə Şəmkir maşın kanalının nasos stansiyasının suvermə qabiliyyətinin artırılması və onun birinci növbəsinin təmir-bərpası üzrə 3775 pm basqılı boru kəmərinin 1202 pm hissəsinin quraşdırılması işləri yerinə yetirilmişdir. Goranboy rayonunun 6955 ha (ondan 1582 ha yeni suvarılan sahələr) torpaq sahəsinə suvarma suyunun verilməsi üçün Şəmkir maşın kanalının ikinci növbəsinin zonasında 15413 pm uzunluğunda beton üzlüklü təsərrüfatlararası paylayıcı kanalların tikintisi üzrə işlər aparılmışdır. Arazın yeni qol kanalının sol sahilində yerləşən 9461 ha yeni torpaq sahəsinin suvarılması üçün 9506 pm uzunluğunda dəmir-beton üzlüklü paylayıcı kanalların və 12000 pm qəza sutullayıcı kanalın qurğularla birlikdə tikintisi üzrə işlər başa çatdırılmışdır. Sabirabad rayonunun 3500 ha qış otlaq sahəsinin meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün 25335 pm qapalı suyığıcılar və 108032 pm qapalı drenlər tikilmişdir.

Yevlax rayonunda Aqroparka məxsus 2960 ha torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi işlərinin tamamlanması ilə əlaqədar 1 ədəd 100 min kubmetr həcmində ehtiyat su hovuzunun tikintisi, nasos stansiyasının mexaniki və elektrik avadanlıqlarının quraşdırılması, xarici elektrik təchizatı və 13114 pm basqılı boru kəmərinin çəkilməsi üzrə işlər görülmüşdür. Şəki və Oğuz rayonları ərazisində yaradılacaq Aqroparkın 12300 ha torpaq sahəsində meliorativ tədbirlərin aparılması üçün 4820 pm uzunluğunda qapalı kollektor və suyığıcıların qurğularla birlikdə tikintisi üzrə işlər aparılmış, Ağsu rayonunun 3860 ha (ondan 560 ha yeni suvarılan sahə) torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üçün Qazanarx kanalının 3775 pm hissəsinin yenidən qurulması ilə əlaqədar tədbirlər həyata keçirilmişdir.

Ağstafa rayonunun Muğanlı kəndinin 1496 ha torpaq sahəsinin su təminatının yaxşılaşdırılması üçün 4150 pm dəmir-beton paylayıcı kanalların və Qazax rayonunun İkinci Şıxlı kəndinin 865 ha sahəsinin su təminatının yaxşılaşdırılması üçün I pillə nasos stansiyasının, 4006 pm basqılı boru kəmərinin, 16172 pm uzunluğunda paylayıcı boru kəmərlərinin tikintisi işləri həyata keçirilmişdir. Abşeron yarımadasında kənd təsərrüfatına yararlı əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Abşeron magistral kanalının 256 pm-lik hissəsi qurğularla birlikdə yenidən qurulmuş və kanalın Binə qəsəbəsi ərazisində qapalı şəkildə olan 885 pm hissəsinin tikintisi tamamlanmışdır.

Prezidentin müvafiq sərəncamı ilə 38 şəhər və rayonun 177 yaşayış məntəqəsində 3600 ha (ondan 450 ha yeni suvarılan sahələr) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 200 ədəd subartezian quyusunun layihə-smeta sənədləri hazırlanaraq qazma işləri həyata keçirilmişdir. Eyni zamanda 2020-ci ildən qalan 71 ədəd subartezian quyusunda qazma işləri tamamlanaraq istismara verilmişdir.

Hacıqabul rayonu ərazisində Aqroparka məxsus torpaq sahəsinə Kür çayından sərfi 3,0 m3/san olan nasos stansiyası vasitəsilə suvarma suyunun çatdırılması məqsədilə layihə sənədləri hazırlanaraq tikinti işlərinə başlanılmışdır.

Sel və daşqın təhlükəli çaylarda sahilbərkitmə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri üzrə respublikanın Balakən, Qax, Şəki, Qəbələ, Quba, Xaçmaz, Ağcabədi və Lənkəran rayonlarının ərazisindən keçən çaylarında ümumilikdə 1863 pm uzunluğunda istinad divarları tikilmişdir.

Tovuz, Ağstafa, Qazax, Oğuz, Zərdab və Saatlı rayonlarının əkin sahələrinin su təminatının yaxşılaşdırılması, Şamaxı rayonunda yerləşən heyvandarlıq kompleksinin su ilə təmin edilməsi, Qax və Qusar rayonlarının ərazilərində yerləşən sərhəd zastavalarının və Lənkəran rayonunun Viravul kəndinin ərazisinin Viravulçay çayının sel və daşqın sularından mühafizəsi tədbirlərinin aparılması üçün layihə sənədlərinin hazırlanması işləri yerinə yetirilmişdir.

Eyni zamanda Prezidentin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"na daxil olan layihələrin icrasına uyğun olaraq, İmişli rayonunun 10838 ha torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üçün uzunluğu 29,5 km, sərfi 12 kbm/san olan Qızılarx kanalının, Tərtər, Goranboy, Yevlax və Bərdə rayonlarının 29660 ha torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üçün uzunluğu 22,4 km, sərfi 20,2 kbm/san olan Tərtər Sol Sahil və uzunluğu 12,6 km, sərfi 10 kbm/san olan Xanarx kanallarının, Qusar rayonunun 6091 ha əkin sahəsini suvarma suyu ilə təmin edən uzunluğu 42 km, sərfi 4,5 kbm/san olan Yuxarı Zeyxur kanalının yenidən qurulmasının texniki-iqtisadi əsaslandırılması üzrə işlər yerinə yetirilmişdir.

İşğaldan azad olunmuş ərazilərdə yerləşən su anbarlarının (Suqovuşan, Xaçınçay, Köndələnçay - 3 ədəd) və magistral kanalların təmir-bərpası üçün layihə sənədləri hazırlanmış, Tərtərçay, Həkəriçay və Bərgüşadçay su anbarları kompleksinin su ehtiyatlarının istifadəsi üzrə layihə-axtarış, topoqrafiya, geodeziya və ilkin konseptual layihə işlərinin görülməsinə başlanılmışdır.

ASC tərəfindən 2021-ci ildə icra olunmuş layihələr hesabına 9,5 min ha sahədə torpaqların su təminatı və 3,5 min ha sahədə meliorativ vəziyyəti yaxşılaşdırılmış, 2,1 min ha yeni torpaq sahəsi suvarma suyu ilə təmin edilmişdir.

İdarəetmənin təkmilləşdirilməsi məqsədilə səhmdar cəmiyyətdə müəyyən struktur islahatları aparılmışdır. Belə ki, daha çevik və səmərəli struktura malik idarəetmə sisteminin yaradılması məqsədi ilə eyni rayon ərazisində fəaliyyət göstərən və bir-birini təkrarlayan 26 struktur vahidi ləğv edilmişdir.

Ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədi ilə "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2020-ci il tarixli 1986 nömrəli sərəncamı ilə yaradılmış komissiyanın rəhbərliyi və aidiyyəti qurumların iştirakı ilə ötən ilin kəskin quraqlıq və su qıtlığı şəraitində əhalinin içməli və kommunal-məişət su təchizatı, əkin sahələrinin su təminatı, elektrik enerjisi istehsalının təmin edilməsi üçün müvafiq qabaqlayıcı tədbirlər görülmüş, su anbarları və magistral kanallar üzrə operativ qaydada iş rejimləri hazırlanaraq suyun düzgün paylanılması, sudan səmərəli və qənaətlə istifadə olunması təmin edilmişdir.

Əkin sahələrinin su təminatının və meliorativ vəziyyətinin daha da yaxşılaşdırılması məqsədilə ASC tərəfindən ölkə üzrə sudan istifadə planı, magistral kanallar üzrə su limitləri, respublikanın çayları üzrə suvarma dövründə rayonlararası su bölgüsü cədvəlləri hazırlanaraq təsdiq edilmişdir. Bütün istismar təşkilatlarında gecə-gündüz növbətçilik yaradılmış, vegetasiya suvarmalarının mütəşəkkil həyata keçirilməsi, sudan səmərəli və qənaətlə istifadənin təmin edilməsi və su limitlərinə nəzarətin gücləndirilməsi məqsədilə mütəxəssislər ayrı-ayrı obyektlərə təhkim edilmiş, çayların gursuluq dövründə su anbarlarının doldurulması və yarana biləcək sel və daşqın sularının maneəsiz axıdılması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir.

Suvarma suyundan səmərəli istifadə edilməsi üçün ASC mütəxəssisləri və istismar idarələrinin nümayəndələri tərəfindən yerli Dövlət Aqrar İnkişaf mərkəzləri, icra hakimiyyəti orqanları və bələdiyyələrlə birlikdə mütəmadi olaraq suvarma qrafikləri üzrə növbəliyə riayət olunması ilə bağlı kənd təsərrüfatı məhsulları istehsalçılarının maarifləndirilməsi işləri həyata keçirilmişdir. O cümlədən su ehtiyatlarının dəqiq uçotunun aparılması məqsədilə əsas suvarma kanallarında müasir tipli 18 suölçmə qurğuları quraşdırılmışdır. Hazırda bu tipli daha 150 qurğunun quraşdırılması işlərinə başlanılmışdır.

Ölkəmizdə su ehtiyatlarından daha səmərəli istifadə edilməsi məqsədilə qabaqcıl dünya ölkələrinin təcrübələrinin tətbiqi üzrə də işlər aparılır. Bu istiqamətdə cari il aprelin 4-də İsrailin "Mekorot" milli su şirkəti ilə ASC arasında suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, müasir suvarma üsullarının tətbiqi ilə suya qənaət potensialının qiymətləndirilməsi, su təsərrüfatının iqlim dəyişikliklərinə uyğunlaşdırılması, meliorasiya obyektlərinin planlaşdırılması, layihələndirilməsi, yenidən qurulması və tikintisi üçün müasir su təchizatı texnologiyalarını tətbiq etmək məqsədilə məsləhət xidmətləri müqaviləsi imzalanmışdır.

Prezidentin müvafiq sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü" və "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə cari ildə səhmdar cəmiyyəti tərəfindən Araz çayının yeni qolundan suyun yeni suvarılacaq torpaq sahələrinə verilməsi üçün paylayıcı kanalların tikintisi, Ağsu rayonunun əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Qazanarx kanalının yenidən qurulması, Qazax rayonunun Xanlıqlar, Kəmərli, Aslanbəyli, Qaymaqlı və İkinci Şıxlı kəndlərinin əkin sahələrini su ilə təmin etmək məqsədilə su nasos stansiyalarının və yeraltı suvarma şəbəkələrinin bərpası (İkinci Şıxlı təsərrüfatı üzrə), Şəmkir maşın kanalının nasos stansiyasının suvermə qabiliyyətinin artırılması və onun I növbəsinin təmir-bərpası, Şəmkir maşın kanalının II növbəsinin zonasında təsərrüfatlararsı paylayıcı kanalların layihələndirilməsi və tikintisi planlaşdırılıb. Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorativ tədbirlərin aparılması, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması (Hacıqabul rayonu üzrə), Azərbaycan Respublikasının rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının layihələndirilməsi və qazılması, sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri, Həkəriçay və Bərgüşadçay su anbarlarının texniki-iqtisadi əsaslandırmalarının və layihə sənədlərinin hazırlanması, Suqovuşan (5,2 km magistral kanalla birlikdə), Xaçınçay (7 km uzunluğunda kanalla birlikdə), Aşağı "Köndələnçay", "Köndələnçay-1" və "Köndələnçay-2" su anbarlarının təmir və bərpası, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının işğaldan azad olunmuş ərazilərində meliorasiya və su təsərrüfatı kompleksinin bərpası və inkişafı üzrə texniki-iqtisadi əsaslandırmanın və layihə sənədlərinin hazırlanması, Tərtərçay Sol Sahil kanalının yenidən qurulması, Qız qalası su anbarından magistral kanalın tikintisinin texniki-iqtisadi əsaslandırmasının və layihə sənədlərinin hazırlanması və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Bu tədbirlərin həyata keçirilməsi ilə suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılmasına, yeni suvarılan torpaqların istifadəyə verilməsi nəticəsində ölkə əhalisinin daxili istehsal hesabına çörək və ərzaq məhsulları ilə etibarlı təminatına, yaşayış məntəqələrinin, əkin sahələrinin, hidrotexniki qurğuların və digər infrastruktur obyektlərinin sel və daşqın sularının zərərli təsirlərindən mühafizəsinə, çayların su ehtiyatlarının nizamlanması hesabına onlardan daha səmərəli istifadə edilməsinə geniş imkanlar yaranacaqdır.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, onun çoxminli kollektivi dövlətimzin diqqət və qayğısına cavab olaraq əkin sahələrinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq istiqamətində olan ardıcıl tədbirləri davam etdirəcək, mövcud meliorasiya və irriqasiya sistemlərinin tikintisi, qorunub saxlanılması, lazımi səviyyədə istismarının həyata keçirilməsi, təmir-bərpa işlərinin təşkili sahəsində qarşısına qoyulmuş vəzifələri tam məsuliyyəti ilə dərk edərək onların vaxtında və layiqincə yerinə yetirilməsində daha səylə çalışacaq və bütün bacarıq və imkanlarından istifadə edəcəkdir.

***Zaur MİKAYILOV,***
***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri***





5 İyun Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günüdür

# Bakı zümrüd şəhərə çevrilir



## Paytaxda salınan yeni meşə massivlərinin sayı artır

*"Bir vaxtlar bu ərazi çox baxımsız idi. Hər səhər pəncərəni açanda tullantıların üfunəti evə yayılırdı. Çox pis vəziyyətlə üzüzə idik. Yayda uşaqların oynaması, böyüklərin istirahət etməsi üçün ərazidə yaşıllıq sahəsi yox idi. Ərazi hansısa sahibkar tərəfindən alınmışdı. İndi isə ürəyimiz dağa dönüb. Çünki hər günümüz gözəl mənzərəyə açılır. Havalar mülayimləşəndən nəvələrimlə hər gün parkda vaxt keçiririk, onlar oynayır, əylənir, biz də qonşularla söhbət edirik. Allah Prezidentimizin canını sağ eləsin. Bizim üçün hər cür şəraiti yaradıb".*

Bu sözləri fevral ayında Yasamal rayonunda açılışı olan parkın yaxınlığında yaşayan paytaxt sakini Gülsurə Baxşıyeva deyir.

Həqiqətən də, vaxtilə bu məkan kimlərsə tərəfindən zəbt olunmuşdu və ərazinin hissə-hissə satılacağı ilə bağlı fikirlər dolaşırdı. Amma bu məsələyə Prezident İlham Əliyevin müdaxiləsindən sonra proses dayandırıldı və bu torpaqlar dövlət fonduna qaytarıldı. Dövlət başçısının tapşırığına əsasən, 4 hektar ərazidə yeni park salındı. Bu parkın ərazisinin 70 faizini yaşıllıq zonası təşkil edir. Eyni zamanda parkda ətraf ərazilərin sakinlərinin istirahəti üçün bütün şərait yaradılıb.











### İnsanların istirahətinə rəng qatan meşə ab-havası...

Paytaxt sakinləri yaz, yay aylarında parklara, yaşıllıq, sərin ərazilərə üz tutmağa meyilli olurlar. Bu aylarda parklarda quşların cəh-cəhi uşaqların gülüş səslərinə, qohum-qonşuların söhbətlərinə qarışır. İsti aylarda axşama doğru parklarda insan əlindən tərpənmək olmur, kimi oturacaqlarda əyləşir, kimi isə özünü yaşıl otların üzərinə, ağacların kölgəsinə verərək dincəlir.

Biz isə bir vaxtlar baxımsız vəziyyətdə olan Yasamal rayonunda yeni salınan meşə tipli parkda yaradılan şəraitlə tanış olmaq üçün bu maraqlı məkana üz tutduq.

Parkın girişində ərazi gözümüzə kiçik görünsə də, irəlilədikcə buranın daha böyük olduğunu gördük. İş saatının bitdiyi üçün parka daha çox insan yığışmışdı. Burada istirahət edənlərin əksəriyyəti ətraf binaların sakinləri olsa da, kənardan gələnlər də var idi. Ən çox səsi eşidilən isə təbii ki, uşaqlar idi. Onlar otluqların üzərində rahatlıqla qaçır, quraşdırılmış müxtəlif attraksionlarda əylənirdilər. Parkın əsas gözəlliyi otluq ərazinin üstünlük təşkil etməsi, eyni zamanda gəzinti yerlərinin daş ilə deyil, daha yumşaq örtüklə salınması idi. Təbii ki, bu da uşaqların yıxıldığı zaman onların ağır zədələrdən qorunması üçün vacib faktorlardan biridir.

Bura gələnlər otluqda və ya quraşdırılmış müxtəlif tip oturacaqlarda əyləşərək təbiətdən zövq alırdılar. Yaşıl otların üzərində süfrə salıb, piknik düzəldib otların qoxusunu, təravətini hiss edənlər də az deyildi. Eyni zamanda ərazidə açıq havada samovar çayı təklif edən kiçik kafe və restoran da var.

Park salınarkən idmansevərlər də unudulmayıb. Ərazidə hər yaş kateqoriyası üzrə müxtəlif növ idman qurğuları quraşdırılıb və bunlardan istifadə tam ödənişsizdir. Parkın yaşayış binasının düz yanında yerləşməsi, səhər pəncərənin belə bir mənzərəyə açılması ərazidə yaşayanların günə gümrah, daha enerjili başlamalarının əsas səbəblərindən biri olur.

### Yeni parklar şəhərsalmanın standartlarına uyğun salınır

Prezidentin tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkəmizin bütün guşələrində, xüsusən də paytaxt Bakıda yeni yaşıllıqlar, meşə massivləri, istirahət parkları salınır, mövcud yaşıllıq sahələri daha da genişləndirilir. Yeni salınan parklar şəhərsalmanın standartlarına və müasir tələblərinə uyğun şəkildə qurulur. Son illər Bakının və Abşeron yarımadasının meşə-parklarla zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verilir. Qlobal ekoloji böhran fonunda, şəhərlərin qədimliyinin qorunması ilə yanaşı, müasirləşməsi və modern dünyaya uyğunlaşdırılması, ətraf mühitin qorunması, problemlərin həlli, sağlam mühitin formalaşdırılması istiqamətində paytaxtımızda genişmiqyaslı tədbirlər görülür.

Hazırda şəhərsalma zamanı əsas üstünlük verilən layihələrdən biri də insanların asudə vaxtlarını səmərəli keçirməsi üçün meşə massivləri, bağlar, yaşıllıq sahələri, yaşayış massivlərinin yaxınlığında sakinlər üçün istirahət parklarının salınması ilə bağlıdır.

Müasir şəhərsalmada, tikinti layihələrində parklar, istirahət yerləri mütləq nəzərə alınır. İqlim dəyişiklikləri fonunda meşə sahələrinin salınması, meşələrin bərpası, yaşıllıqların artırılması vacib faktorlardan hesab olunur. Təbii ki, yaşıllıqlar sağlam mühitə, insanların rahat dincəlməsinə şərait yaradır, eyni zamanda iqlim dəyişikliklərindən doğan fəsadların qarşısını almağa kömək edir.

Hazırda respublikamızın meşə fondu sahəsi 1213,7 min hektar olmaqla ümumi ərazinin 14 faizini təşkil edir. Meşə ilə örtülü sahələr isə 1021 min hektardır ki, bu da ölkə ərazisinin 11,8 faizini əhatə edir. Ölkəmizin ümumi meşə ərazilərinin 49 faizi Böyük Qafqazın, 34 faizi Kiçik Qafqazın, 15 faizi Cənub dağlarının, 2 faizi isə Aran zonasının payına düşür. Ekoloji mühitin əsas tərkib hissələrindən hesab olunan meşələr bütövlükdə birinci qrupa aid edilməklə, qlobal ekoloji problemlərdən hesab olunan iqlim dəyişmələrinin, səhralaşma proseslərinin genişlənməsinin, bioloji müxtəlifliyin azalmasının, atmosferdə qaz balansının pozulmasının qarşısının alınmasında əvəzsiz əhəmiyyət kəsb etməklə yanaşı, ölkənin sosial-iqtisadi, mədəni, müdafiə sahələrinin inkişafında da əhəmiyyətli rol oynayır.

### Bakıda parkların sayı artırılır

Son dövrlər insanlar betonlaşmış örtüklərin üzərində gəzməkdən daha çox təbii landşafta əsaslanan parklarda, istirahət bağlarında vaxt keçirməyə üstünlük verirlər. Çünki insanı yay aylarında, isti günlərdə yaşıl otların üzərində, ağacın kölgəsində təşkil olunan piknik qədər heç nə dincəldə bilməz.

Bakıda da yaşıllıqların artırılmasına xüsusi diqqət yetirilir, belə yerlərin sayı artırılır. 2020-ci ilin sonuna olan statistikaya əsasən, Bakıda parkların sayı 106-dır ki, onların da çoxu Suraxanı rayonu ərazisinə düşür. Amma təbii ki, son iki ildə də müxtəlif rayonlarda sakinlərin asudə vaxt keçirməsi, dincəlməsi üçün yeni parklar salınıb, eyni zamanda bəzi parklar əsaslı yenidənqurma və abadlıq işlərindən sonra istifadəyə verilib. Son bir ildə Xətai, Yasamal və Nəsimi rayonları ərazisində yaradılan və təbiiliyi ilə seçilən parkları buna misal göstərmək olar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın açılışında iştirak etdiyi "Gənclik" parkı bir zamanlar baxımsız ərazi olsa da, prezidentin tapşırığı əsasında yenidən qurularaq meşə tipli parklardan birinə çevrilib. Park 43 hektar ərazini əhatə edir. Burada 300 minədək ağac əkilib, yaşıllıqlar salınıb. Eyni zamanda parkda şəhər sakinlərinin və qonaqların istirahəti üçün müxtəlif infrastruktur yaradılıb.

### Parklar və bağlar şəhəri

Son illər Bakıda həyata keçirilən quruculuq, abadlıq işləri genişlənir, yaşayış kompleksləri ətrafında salınan yeni istirahət guşələri artmaqda davam edir.

Paytaxtla yanaşı, bölgələrimizdə də parklar salınır. Eyni zamanda Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyeva tərəfindən məhəllələrarası parklar formatı tətbiq olunur. Bu layihə çərçivəsində ərazilərdəki onlarla binanın fasadları, dam örtükləri, blokları təmir olunur, bütün yaş kateqoriyaları üzrə həm istirahət etmək, həm idmanla məşğul olmaq, həm də asudə vaxt keçirmək üçün şərait yaradılır.

*Bakı ildən-ilə gözəlləşir, bunu həm şəhərimizin sakinləri, həm də xarici qonaqlar təsdiqləyir. Azərbaycan Prezidentinin də vurğuladığı kimi, vəzifə Bakını parklar və bağlar şəhərinə çevirməkdir.*

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Bakı Enerji Həftəsinə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən xüsusi sessiya ilə yekun vurulub





İyunun 4-də Bakı Enerji Forumu çərçivəsində Şuşa şəhərində 100-dən çox yerli və xarici nümayəndənin iştirak etdiyi xüsusi sessiya keçirilib.




AZƏRTAC xəbər verir ki, "Xalis sıfra aparan yol: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl enerji potensialının inkişafı" mövzusuna həsr olunan xüsusi sessiyada əvvəlcə Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı Prezident Rəcəb Tayyib Ərdoğanın Bakı Enerji Həftəsi iştirakçılarına ünvanladığı məktubu oxuyub.

Türkiyə Prezidenti məktubunda bütün sahələrdə olduğu kimi, enerji sahəsində də Azərbaycan və Türkiyənin mükəmməl əməkdaşlığının ölkələrimiz və bölgəmiz üçün strateji xarakter daşıdığını qeyd edib. Məktubda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bərpaolunan enerji sahəsində ortaya qoyduğu baxışın regionun sabitliyi və rifahı baxımından önəmli olduğu vurğulanıb.

Daha sonra energetika naziri Pərviz Şahbazov çıxış edərək Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdən danışıb. Nazir azad edilmiş ərazilərin bərpaolunan enerji potensialı və əməkdaşlıq imkanlarından bəhs edib. O, həmçinin Şuşada imzalanacaq sənədlərin "enerji keçidi" prosesinə töhfə verəcəyini bildirib.

SOCAR-ın birinci vitse-prezidenti, prezident vəzifəsini müvəqqəti icra edən Rövşən Nəcəf çıxışında "SOCAR-ın 2035-ci ilə qədər Korporativ Strategiyası" çərçivəsində enerji keçidi, rəqəmsallaşma və innovasiya kimi fəaliyyət sahələrini ehtiva edən yeni üfüqlər üzrə strateji təşəbbüslərindən bəhs edib. O qeyd edib ki, forumun xüsusi sessiyası çərçivəsində bərpaolunan enerji mənbələrinin birgə inkişafı haqqında SOCAR və "Masdar" arasında imzalanacaq Anlaşma Memorandumu, eyni zamanda SOCAR və bp arasında əməkdaşlıq müqaviləsi bu strategiyanın əsas komponentlərindən biri kimi qiymətləndirilə bilər.

R.Nəcəf Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonası elan edilən bu ərazilərin öz geniş iqtisadi, nəqliyyat, turizm və bərpaolunan enerji potensialı ilə bundan sonra uzun illər ərzində Azərbaycanın və regionun dayanıqlı inkişafına, bölgədə sülhə, əmin-amanlığa, əməkdaşlığa dəyərli töhfələr verəcəyini vurğulayıb.

bp-nin Regional prezidenti Qəri Counz çıxışında şirkətin təxminən 30 il ərzində Azərbaycanda neft-qaz sektorunda uğurla fəaliyyət göstərdiyini bildirib. O, bu illər ərzində SOCAR ilə etibarlı əməkdaşlıq əlaqələrinin qurulduğunu qeyd edib. Qəri Counz Şuşada imzalanacaq sənədlərin "enerji keçidi" dövründə Azərbaycanın bərpaolunan enerji potensialının inkişafına töhfə verəcəyini qeyd edib.

"Total Energies" şirkətinin Azərbaycan üzrə icraçı direktoru Regis Agut bildirib ki, şirkət ilə Azərbaycanın uzunmüddətli əməkdaşlığı var: "İyirmi altı ildən çoxdur ki, enerji layihələrinin həyata keçirilməsində birgə fəaliyyət göstərilir. Azərbaycanın alternativ enerji sahəsində böyük potensialı var. Ölkə bu vasitə ilə artan enerji tələbatını ödəyə bilər".

Daha sonra "Masdar Clean Energy" şirkətinin icraçı direktoru vəzifəsini icra edən Fauaz Al Muharraminin, "ACWA Power" şirkətinin İnvestisiya direktoru Klayv Törtnün çıxışları dinlənilib.

Həmçinin Bakı Enerji Həftəsi haqqında videoçarx nümayiş etdirilib, Şuşa xüsusi sessiyası çərçivəsində əməkdaşlığa dair bir sıra sənədlərin imzalanması mərasimi keçirilib.

İlk olaraq Azərbaycan Respublikasının Energetika Nazirliyi və bp arasında Cəbrayılda 240 MVt gücündə günəş-elektrik stansiyası layihəsinin birgə həyata keçirilməsi ilə bağlı növbəti addımların atılması məqsədilə 2021-ci ilin iyun ayında bağlanmış İcra Müqaviləsinə Əlavə imzalanıb.

Bu sənəd "Şəfəq" adlı günəş-elektrik stansiyası layihəsinin reallaşdırılması istiqamətində birgə fəaliyyəti yekunlaşdırmaq üçün görüləcək tədbirləri əks etdirir.

İcra Müqaviləsinə edilmiş Əlavə sənədinə əsasən, layihənin icrasında effektiv texniki və kommersiya həllinə nail olmaq üçün "Virtual enerji ötürülməsi mexanizmi" adlı biznes modelinin tətbiqi planlaşdırılır. Bu model layihə çərçivəsində Cəbrayılda günəş enerjisinin istehsalına və onun ölkənin digər hissələrində dövlət və ya özəl alıcılara satışına imkan yaradır.

Sonra Energetika Nazirliyi və BƏƏ-nin "Masdar" şirkəti arasında "Azərbaycan Respublikasında quruda sənaye miqyaslı 1 QVt gücündə günəş və 1 QVt gücündə külək enerjisi layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqaviləsi" və "Dənizdə 2 QVt gücündə inteqrasiya edilmiş külək və yaşıl hidrogen layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqaviləsi" imzalanıb.

Quruda ümumi qoyuluş gücü 2 QVt olan külək-günəş enerjisi layihələri üzrə icra müqaviləsi çərçivəsində istehsal olunacaq enerjinin müəyyən bir qisminin ölkənin enerji sisteminə ötürülməsi üçün şəbəkə imkanlarının müfəssəl araşdırılması, şəbəkənin gücləndirilməsi üzrə lazımi tədbirlərin görülməsi, həmçinin elektrik enerjisinin ixracı məqsədilə müvafiq proseslərin həyata keçirilməsi planlaşdırılır.

Dənizdə qoyuluş gücü 2 QVt olan külək və hidrogen enerjisi layihələri üzrə icra müqaviləsi isə istehsal və ixrac məqsədli külək-elektrik enerjisi güclərinin yaradılmasını, karbonsuzlaşdırma, hidrogenin istehsalı və ixracı istiqamətində kompleks tədbirlərin görülməsini nəzərdə tutur.

Növbəti müqavilə SOCAR ilə bp arasında imzalanıb. Əməkdaşlıq müqaviləsini SOCAR-ın birinci vitse-prezidenti Rövşən Nəcəf və bp-nin Regional prezidenti Qəri Counz imzalayıb. Sənəd Azərbaycan Respublikasında bərpaolunan enerji potensialının öyrənilməsini, bu sahədə əməkdaşlıq məsələlərini və birgə layihələrin həyata keçirməsini nəzərdə tutur.

Son olaraq isə SOCAR ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi SOCAR-ın birinci vitse-prezidenti, prezident vəzifəsini müvəqqəti icra edən Rövşən Nəcəf və "Masdar Clean Energy" şirkətinin icraçı direktor vəzifəsini icra edən Fauaz Al Muharramin imzalayıb.

Sənəd Azərbaycanda bərpaolunan enerji sahəsində əməkdaşlıq məqsədi daşıyır.

Daha sonra Şuşa Şəhər Dövlət Qoruğu İdarəsi tərəfindən Şuşa turu təşkil olunub. Tədbir iştirakçıları mədəniyyət paytaxtımızın tarixi və mədəni abidələrini ziyarət edib, şəhərdə aparılan bərpa və yenidənqurma işləri ilə tanış olublar.

# Quru Qoşunlarında döyüş atışlı taktiki təlim keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2022-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, Quru Qoşunlarının hissə və bölmələrində döyüş atışlı taktiki təlim keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimə cəlb olunan motoatıcı, artilleriya və zirehli texnika bölmələri ssenariyə uyğun olaraq, aşkarlanan şərti düşmən hədəflərini qarşılıqlı əlaqədə məhv ediblər.

Təlimin keçirilməsində əsas məqsəd komandirlərin idarəetmə qabiliyyətini və şəxsi heyətin praktiki bacarıqlarını inkişaf etdirmək, eləcə də bölmələr arasında qarşılıqlı əlaqəni təkmilləşdirməkdir.

Döyüş atışlı taktiki təlimlərdə qarşıya qoyulan tapşırıqlar bölmələr tərəfindən müvəffəqiyyətlə icra olunub.

# Hərbi qulluqçuların "TEKNOFEST Azərbaycan"da iştirakı yüksək qiymətləndirilib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya festivalının təşkilində, eləcə də keçirilməsində fəal iştirak edən Azərbaycan Ordusunun hərbi qulluqçularını mükafatlandırıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qeyd edilib ki, Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq nümunələrindən biri olan festivalda hər iki ölkənin hərbi pilotlarının birgə uçuşları, Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarının çıxışları, eləcə də Müdafiə Nazirliyi üçün ayrılan pavilyonda təqdim olunan müasir hərbi-texniki avadanlıqlar ziyarətçilərin böyük marağına səbəb olub.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın festivalda çıxışlarının ordumuzda təhlili və şəxsi heyət arasında təbliğ edilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

Hər iki qardaş ölkə arasında əlaqələrin inkişafında dövlət başçılarının dostluq münasibətlərinin mühüm rol oynadığını bildirən nazir 2021-ci il iyunun 5-də imzalanan Şuşa Bəyannaməsinin bu istiqamətdə atılan mühüm addımlardan biri olduğunu diqqətə çatdırıb. Bəyannamənin tələblərindən irəli gələn fəaliyyətlərin Azərbaycan Ordusunda planlı şəkildə yerinə yetirildiyi qeyd olunub.

Sonda "TEKNOFEST Azərbaycan" festivalında iştirak edən hərbi qulluqçuların təltif edilməsi barədə müdafiə nazirinin əmri aidiyyəti üzrə çatdırılıb. Əmrə əsasən, festivalda fəal iştirak edən hərbi qulluqçular fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.





# Mədəniyyət





Unudulmazlar



...1938-ci ildə Bakıda Azərbaycanda özfəaliyyət kollektivlərinin baxış müsabiqəsi keçirilirdi. Həmin vaxt müsabiqə iştirakçıları arasında olan 16 yaşlı yeniyetmə qız da çıxış üçün öz növbəsini həyəcanla gözləyirdi. Ürəyi əsim-əsim əsir, ilk dəfə səhnədə nəhəng ustadların - Üzeyir bəy Hacıbəylinin, Hüseynqulu Sarabskinin, Yavər Kələntərlinin, Əhməd Bakıxanovun, Qurban Pirimovun, Zülfü Adıgözəlovun qarşısında çıxış edəcəyi, imtahan verəcəyi üçün həyəcandan doğan narahatlıqla var-gəl edirdi...

Artıq növbəsi çatmış, çıxış üçün səhnədə adı elan olunmuşdu... Daha bundan sonrakı taleyi onun öz əlində idi. Yeniyetmə qız da beynində vurnuxan bütün tərəddüdlərə son nöqtəni qoyub inamla səhnəyə addımlamışdı...

## Əfsanəvi Sara

"Qatar" muğamını, ardınca da "Gəlmə-gəlmə" mahnısını köksündən qopan məlahətli səslə elə bir ruhla, elə bir şövqlə oxumuşdu ki, orada olan hər kəsi, eləcə də münsiflər heyətinin rəhbəri Üzeyir bəyi valeh etmişdi...

O zaman Üzeyir bəy yeniyetmə qıza üzünü tutub söyləmişdi ki, sənin doğrudan da gözəl səsin var: "Kim bilir, bəlkə operamıza gələcəyin Leylisi gəlir..."

### O, səhnəyə bahar mehi gətirərdi

Ona hər kəs "Azərbaycan gözəli" deyərdi, Üzeyir bəy isə onu "səhnəmizin gözəl Sarası" adlandırardı...

Bəli, Tanrı Sara xanıma elə bir qənirsiz gözəllik vermiş, ona elə bir camal bəxş etmişdi ki, səhnədə ay kimi parlayardı...

Sara xanım elə ki, səhnəyə çıxıb mahnı oxumağa başlayardı, anındaca ilahi gözəlliyə bürünərdi və onu görənlər heyrətlə söyləyərdilər ki, Sara oxuyanda mələk kimi görünür...

O, səhnəyə sanki bahar mehi gətirər, zirvədə dayanmış qartal ədası ilə sağa, sola boylanıb muğam və mahnıları oxumağa başlayanda elə bilərdin ki, Azərbaycanda, Qarabağda çağlayan büllur bulaqlardan axan sular ürəklərə süzülür. Tarın bütün pərdələrində məharətlə gəzişən zil və məlahətli səsi ilə ifa etdiyi "Qarabağ şikəstəsi", "Şahnaz", "Qatar", "Şur dəstgahı" muğamları, "Ay işığında", "Nə vaxta qaldı", "Nədən oldu", "Lay-lay", "Tar çalan oğlan", "Xatirələr", "Qara tellər", "Hind qızı" və yüzlərlə digər mahnılar eşidənlərini bir daha unutmayacaqları şəkildə sehrli və sirli təsirinə salır, könülləri fəth edirdi...

Təkcə bu da deyildi, Sara xanım əcnəbi xalqların mahnılarını da elə məharət və ürəyə xitab edən şəkildə oxuyardı ki, dinləyicilərinin heyrətqarışıq sevinc və alqış nidasına, gül-çiçək yağışına qərq olardı...

### Qarabağlı qızının musiqi dünyası

Klassik muğam, xalq və bəstəkar mahnılarının ifaçılığı sahəsində öz dəst-xətilə seçilən Xalq artisti, "Şöhrət" ordenli Sara Bəbiş qızı Qədimova 1922-ci il mayın 31-də Bakıda anadan olub. Amma əslən Ağdamın Gülablı kəndindən olduğu üçün hər kəs onu qarabağlı qızı kimi tanıyıb. Görünür, elə Sara xanımın da ilahi vergi olan ecazkar səsə, təkrarolunmaz ifaçılıq sənətinə yiyələnməsi məhz musiqi beşiyi Qarabağdan olması, eyni zamanda atasının dostları, böyük ustadlar Xan Şuşinskinin, Zülfü və Qurban əminin möhtəşəm ifalarını dinləməsi, muğamın incəlikləri ilə bağlı onlardan öyrəndiyi sirlərlə bağlı olub. O lap kiçik yaşlarından atası ilə Gülablıda təşkil olunan musiqi məclislərində iştirak edərdi. Musiqini çox sevən anası isə balaca Saraya muğamların, mahnıların sözlərini öyrədərdi. Amma şən səsi-avazı Gülablının, Qarabağın uca dağlarında, yaşıl çəmənlərində dolaşan balaca Saranın nəğmələrinə çox keçmədən qəm notları da düşür. Əvvəl anasını, iki il sonra isə atasını itirən Sara və onun bacı-qardaşları başsız qalırlar.

Səkkizinci sinfi bitirən kimi Sara tibb məktəbinə daxil olur, lakin fitri-istedadı onu musiqi dünyasına daha çox cəzb edir. Buna görə də oxuduğu məktəbin özfəaliyyət dərnəyinə yazılıb Əbilov adına klubda məşqlərə gedir.

1941-ci ildə Sara xanım Asəf Zeynallı adına Bakı Musiqi Texnikumuna, Hüseynqulu Sarabskinin muğam sinfinə qəbul olunur. O, Qurban Pirimov, Zülfü Adıgözəlov, Əhməd Bakıxanov, Hüseynqulu Sarabski, Seyid Şuşinski, Xan Şuşinski kimi ustad sənətkarlardan dərs alıb, musiqinin, muğamlarımızın sirrini öyrənir.

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi musiqi fəaliyyətinə başlayan Sara Qədimova nadir istedadı sayəsində qısa müddət ərzində şöhrət taparaq müğənni kimi tanınmağa, sevilməyə başlayır.

### Saranın vurğunu

Sara Qədimovanın ilk qastrol səfəri Moskvaya olur. 1941-ci ilin 20 iyununda bir qrup incəsənət ustası ilə birlikdə Ümumittifaq müsabiqəsində iştirak edir. Çox keçmədən İkinci Dünya müharibəsi başlayır və Sara xanım bu dəfə qələbəyə ruhlandıran nəğmələri ilə 416-cı Taqanroq diviziyasında azərbaycanlı əsgərlərin qarşısında çıxışlar edir. Belə səfərlərin birində isə Səməd Vurğun bir şeir yazıb gənc Saraya verir ki, bunu əzbərlə və "Segah" üstündə oxu. Beləliklə, Sara xanım cəbhədə verilən konsertlərin hamısında "Segah" muğamını Səməd Vurğunun aşağıda bir bəndini verdiyimiz şeiri ilə başlayır:

*Yenə qılıncını çəkdi üstümə,*
*Qurbanı olduğum o ala gözlər.*
*Yenə cəllad olub durdu qəsdimə,*
*Qələm qaş altında o ala gözlər.*

### "Azərbaycan maralı" xoş gəlib

Sara Qədimova ilk dəfə 1942-ci ildə İrana qastrol səfərinə gedir və ayyarım davam edən bu səfər müddətində çıxışları ona bu ölkədə təsvirəgəlməz rəğbət qazandırır.

1944-cü ildə incəsənət işçilərimizlə bərabər İrana növbəti dəfə qastrola gedəndə isə daha böyük şöhrət qazanır. Konsertlərdə "Kürdün gözəli", "Ay dilbər", "Qubanın ağ alması" və digər mahnılarımızı böyük məharətlə ifa edərək dinləyicilərini heyrətləndirir. O günlərin şahidi olanlar xatirələrində danışıblar ki, iranlı qadınlar onu bağırlarına basıb "Azərbaycan maralı" xoş gəlibdir" deyirdilər.

Həmin vaxt Məhəmməd Rza Şah Pəhləvi Xan Şuşinski ilə birlikdə Sara Qədimovanı iqamətgahında - Şimranda qəbul edir, onları Dövlət mükafatı ilə təltif edir.

Sara xanım 3 ay çəkən həmin səfəri ilə bağlı hər dəfə deyərmiş ki, İran səfəri onun həyatında böyük rol oynayıb.

### Şərqdə muğam dəstgahlarını tamam-kamal ifa edən ilk qadın xanəndə

"Allah Sara xanıma elə bir səs vermişdir ki, o, çox asanlıqla, çətinlik çəkmədən tarın bütün pərdələrində gəzişə bilər. Onun səs diapazonu, səs götürümü çox genişdir. Əgər Sara xanım çox çətin, yüksək kaloritli "Bayatı Şiraz" muğamını oxuyursa, daha ona söz ola bilməz". Sara xanımın sənətkarlığına bu qədər yüksək dəyər verdiyini ifadə edən görkəmli tarzən Bəhram Mansurov həm də sözügedən və digər muğamlarımızı Sara xanımın mükəmməl ifa etməsi bacarığını xüsusilə vurğulayıb.

Ümumiyyətlə, Sara xanım Şərqdə muğam dəstgahlarını tamam-kamal ifa edən ilk qadın xanəndə olub. O, "Şur dəstgahı", "Mahur-hindi", "Bayatı-Şiraz", "Rast", "Segah", "Xari segah", "Qatar", "Şahnaz" kimi çətin və mürəkkəb muğamları məharətlə oxuyub və öz silinməz möhürünü vurub.

Tədqiqatlarda göstərilir ki, Sara xanım 400-dən artıq xalq və bəstəkar mahnısı, 11 muğam ifa edib. Hazırda radionun "Qızıl fond"unda onun ifasında 7 muğam və 200-dən çox mahnı qorunub saxlanılır.

### Operamızın Leylisi

19 aprel 1959-cu ildə "Molodyoj Azerbaydjana" qəzeti yazırdı: "3 aydan artıq bir müddətdə gərgin yaradıcılıq əməyi sayəsində Sara Qədimova parlaq, təsiredici Leyli obrazını yaratmışdır. Bu obraz Sara xanımın ifasında yeni səhnə həyatı və tamaşaçıların yüksək qiymətini almışdır".

1956-cı ildə böyük mədəniyyət xadimlərimiz Niyazi, Fikrət Əmirov Sara xanımı Opera teatrına dəvət edirlər. Artıq həmin vaxta qədər o, respublikada məşhur müğənni və xanəndə kimi tanınırdı. Amma Sara xanım oynadığı Leyli obrazı ilə tamaşaçıların daha yüksək rəğbətini qazanır. Onu Leyli rolunda görmək üçün hətta respublikanın uzaq bölgələrindən tamaşaçılar axın-axın Opera teatrına gələrdilər.

Tanrının lütf etdiyi təbii gözəllik, yüksək aktyorluq qabiliyyəti, muğamları incəliyinə qədər bilməsi və opera sənətçisi üçün lazım olan bütün məziyyətlərin bir harmoniya kimi Sara xanımda cəm olması onun böyük uğurunun sirri idi.

Sara xanımın ifasında Əsli, Şahsənəm obrazları ilə yanaşı, Leyli obrazı da dinləyicilərə yeni və təravətli ruh verirdi. Təsadüfi deyildi ki, 1958-ci ildə Füzulinin yubileyi keçirilən zaman Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin təklifi ilə Sara Qədimova və Əbülfət Əliyevin ifasında "Leyli və Məcnun" operası başdan-ayağa lentə yazılıb və "Qızıl fond"a daxil edilib.

### Sara oxuyanda...

"Qarabağ şikəstəsi" Sara xanımın köksündən bir başqa çağlayardı. Sara Qədimova ruhunun ecazkar səsi kimi qulaqlarda əks-səda verən bu şikəstə böyük müğənnimiz haqqında İlyas Əfəndiyevin qələmə aldığı sözlərlə əsl təzahürünü tapıb: "Sara Qədimova oxuyanda özümü laləli dağ yollarında hiss edirəm. Sanki Şuşaya və Kirs, Ziyarət, Salvartı dağlarına qalxıram, Qarabağ təbiətinin bütün gözəlliyi ruhuma dolur, Şuşanın, İsa bulağının, Şəkilli bulağın nəfəsini hiss edirəm..."

Araşdırmalarda Sara Qədimovanın hələ ötən əsrin 40-cı illərindən "Qarabağ şikəstəsi"ni oxuduğu və heç bir qadın müğənninin ona qədər bu şikəstəyə müraciət etmədiyi qeyd olunur. 1959-cu ildə Moskva şəhərində keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti dekadasının bağlanışında Sara xanımın Xan Şuşinski və Şövkət Ələkbərova ilə birlikdə oxuduğu "Qarabağ şikəstəsi"ni özünəməxsus füsunkarlıqla ifa etməsi diqqətlərdən yayınmamışdı...

Həmin dekadada partiya və hökumət rəhbərləri, SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıgin, Sov.İKP Mərkəzi Komitəsinin katibləri Y.A.Furtseva və A.İ.Kiriçenko da iştirak etmişdilər və Sara xanımın ifasında "Qarabağ şikəstəsi"ni çox bəyənmişdilər. Bu da faktdır ki, Y.Furtseva SSRİ mədəniyyət naziri işlədiyi dövrdə Sara xanımı fasiləsiz olaraq xarici ölkələrə qastrollara göndərib. Bu dekadadan üç il sonra Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Sara Qədimovaya Azərbaycan SSR Xalq artisti fəxri adı verilib.

### Azərbaycan incəsənətinin layiqli təmsilçisi

Dünyanın 22 ölkəsində konsert proqramları ilə çıxış edən Sara Qədimova Rəşid Behbudovdan sonra keçən əsrin 50-70-ci illərində Azərbaycan musiqisini xarici dövlətlərdə ən çox təmsil edən sənətkar kimi də adını mədəniyyət tariximizə qızıl hərflərlə həkk edib.

Səsi-avazı dünyanın dörd bir tərəfindən gələn Sara xanımın 1963-cü ildə İndoneziyada 3 ay ərzində verdiyi 82 möhtəşəm konsert isə dillərdə dastan olub. O zaman SSRİ-nin ilk kosmonavt qadını Valentina Tereşkova və SSRİ mədəniyyət naziri Y.Furtseva da konsertlərin birində iştirak ediblər.

Həmin səfərlə bağlı Furtseva Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə göndərdiyi məktubda yazıb: "Azərbaycan SSR Xalq artisti Sara Qədimova İndoneziyada böyük müvəffəqiyyət qazandı. Kosmonavt Valentina Tereşkovanın iştirak etdiyi və SSRİ inşaatçılarının tikib istifadəyə verdikləri 100 min nəfərlik stadionda o, Prezident Sukarnonun sevdiyi İndoneziya mahnısını böyük məharətlə oxudu. Stadiondakı 100 min nəfərlik publika həmin mahnını Sara Qədimova ilə birlikdə ifa etdi. O, sovet adamının yüksək adına xələl gətirən heç bir hərəkətə yol vermədi".

Sara xanım ecazkar səsə, mahir ifaçılıq qabiliyyətinə malik olması ilə yanaşı, özünəməxsus xarakteri ilə də hər kəs tərəfindən böyük rəğbətlə qarşılanıb təqdir edilirdi. Hətta müstəsna mənəvi dəyərlərə malik olmasına görə respublikaya gələn yüksək səviyyəli qadın sənətkarları qarşılamaq da məhz ona tapşırılardı.

Bütün hökumət tədbirlərində çıxış edən Sara xanım 1967-ci ildə Türkiyənin baş naziri Süleyman Dəmirəl Bakıya gələndə onun şərəfinə verilən ziyafətdə "Qara tellər", "Ay dilbər" , "Türk mahnısı" , "Aişə" və "Şahnaz" muğamını özünəməxsus təkrarsızlıqla oxumuşdu. Onun ifaçılıq sənəti Süleyman Dəmirəli o qədər məftun etmişdi ki, üzərindən 29 il keçəndən sonra o, prezident kimi Bakıya gələndə ötən bu illər ərzində Sara xanımın səsinin qulağından getmədiyini dilə gətirmişdi.

O vaxt Süleyman Dəmirəl Sara xanımı şəxsi qonağı kimi Türkiyəyə dəvət etmişdi. Sara xanım 1996-cı ilin noyabr ayında Türkiyədə olmuş, Süleyman Dəmirəllə görüşmüşdü.

### Bu dünyadan bir Sara Qədimova keçdi

Beləcə, illər illəri əvəzləmiş, 67 illik insan həyatı üçün böyük bir zaman dilimində Sara Qədimova yorulmadan mədəniyyətimizə xidmət etmiş, oxuduğu mahnılara, muğamlara, opera səhnəsində yaratdığı rollara özünəməxsus silinməz naxış həkk etmişdi. Bu illər ərzində Sara xanım həm də əsl sənətkar xoşbəxtliyi yaşamış, tamaşaçıları, dinləyiciləri arasında böyük nüfuz qazanmış, onların rəğbətini, sevgisini duymuşdu. Yaşlı nəslin nümayəndələri Sara xanımı heyranlıqla dinləyirdilər. Sara Qədimova nəğmələrindən ruh alaraq formalaşan böyük bir nəsil yetişmişdi. Sara xanım özündən sonra da zəngin sənət xəzinəsi qoyaraq gələcək nəsillərin sevimli müğənnisi olmağı bacarmışdı. Bu gün də Sara Qədimovanın məlahətli səsi, təkrarsız ifası eşidiləndə hər kəs sevə-sevə, məftunluqla dinləyir.

Bəs bütün bunlar elə zamanın fövqündə olmaq, əbədiyaşar olmaq demək deyilmi?!.

Sara xanım səhnəmizə bir Günəş kimi doğdu və 83 illik dolu bir ömürdən sonra öz parlaq şəfəqlərini sənət dünyamıza daimi saçaraq sonsuzluğa qovuşdu...

*Bəli, bu dünyadan bir Sara Qədimova keçdi...*

*Keçdi və unudulmaz olaraq əbədi yaddaşlara köçdü...*

*"Azərbaycan gözəli", ustad xanəndə kimi...*

*Hər zaman səni rəhmətlə, böyük ehtiramla anırıq, unudulmaz sənətkarımız...*

*Və bu bir əsrlik yubileyini çoxdandır intizarında olduğun Qarabağımızın, doğma Gülablının azadlığa qovuşmasının xoşbəxtliyi, möhtəşəmliyi ilə qeyd edirik...*

*Ruhun şad olsun, Sara xanım...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Mədəni irsimiz dünyanı heyran edir

Bu il ölkəmizin UNESCO ilə əməkdaşlığının 30 yaşı tamam olur. 1992-ci ildən bu təşkilata üzv olan Azərbaycan Respublikası ilə UNESCO arasında 1996-cı ildə qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalanmışdır.



UNESCO BMT-nin ixtisaslaşmış təşkilatı olmaqla, dünyanın təhsil, elm, mədəniyyət, informasiya və kommunikasiya forumudur. Milli mədəniyyətimizin dünyaya tanıdılmasında bu təşkilatla əməkdaşlığın özünəməxsus xidmətləri inkarolunmazdır. UNESCO ilə əməkdaşlığımızın tarixinə nəzər salanda 2004-2019-cu illər ərzində qarşılıqlı fəaliyyətin daha səmərəli olduğunu görürük. Prezident İlham Əliyevin 29 sentyabr 2004-cü il sərəncamına uyğun olaraq, Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyi təsis edilmişdir.

15 sentyabr 2005-ci ildə isə Prezident İlham Əliyev UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalamışdır.

Təsadüfi deyil ki, Azərbaycan öz mədəniyyəti, musiqisi, folkloru, zəngin abidələri ilə Avropanı heyran edir. Mədəni irsimizin bütün dünyada təbliğində UNESCO ilə əlaqələr xüsusi yer tutur. Bu istiqamətdə ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın apardığı məqsədyönlü fəaliyyət daha çox diqqəti çəkir. Mehriban xanım Əliyeva 2004-cü ildən UNESCO-nun xoşməramlı səfiridir. Mehriban xanımın yüksək fəaliyyətinin nəticəsidir ki, Azərbaycandan bu təşkilatın qeyri-maddi mədəni irs siyahısına 15 nümunə daxil edilib. Bunlardan 13-ü "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı"na, 2-si isə (Qarabağ atı ilə oynanılan Çovqan atüstü oyunu və Naxçıvanın ənənəvi qrup rəqsləri - yallı, köçəri, tənzələ) təcili qorunmağa ehtiyacı olan qeyri maddi-mədəni irs siyahısına daxil edilmişdir. Azərbaycan muğamının, aşıq sənətinin, Novruz bayramının, Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə İçərişəhərin, Qobustan Dövlət Tarixi Bədii Qoruğunun, Şəki xan sarayı ilə Şəkinin tarixi mərkəzinin, Azərbaycan xalça toxuculuğu ənənəvi sənətinin, tar ifaçılığı və onun hazırlanma ustalığının, kəlağayının düzəldilməsi və onun simvolizminin, Lahıc misgərlik sənətinin, lavaşın, dolmanın hazırlanmasının, kamança ifaçılığı sənətinin, Dədə Qorqud irsinin, miniatür sənətinin UNESCO-nun nadir, şah əsərləri sırasına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlığının göstəricisidir. Ölkəmizdə UNESCO-nun Ümumdünya İrs Siyahısına salınan sonuncu abidəsi Şəki xan sarayı olub.

Yuxarı Baş Dövlət Tarixi-Memarlıq Qoruğunun ərazisində yerləşən, qala divarları ilə əhatə olunmuş XVIII əsr Şərq memarlığı üslubunda inşa edilmiş Şəki xan sarayı muzey kimi fəaliyyət göstərir. İkimərtəbəli möhtəşəm Şəki xan sarayı 6 otaq, 4 dəhliz və ikigüzgülü eyvandan ibarətdir. Sarayın fasadı ov və döyüş səhnələrini əks etdirən süjetli təsvirlər, həmçinin həndəsi və nəbati naxışlarla bəzədilmişdir. Fasadın tam mərkəzində müxtəlif rəngli şüşələrdən yığılmış iri şəbəkə-pəncərə yerləşir. Sarayın rəngli şüşələrdən yığılmış şəbəkə-pəncərələri daş çərçivələrə oturdulmuşdur.

Özündə milli yaşayış binalarının xüsusiyyətlərini daşıyan saray binası Qafqazda XVIII əsr saray memarlığının ən gözəl nümunələrindən biri olmaqla islam Şərqinin dəyərli incilərindən biri hesab edilir. Şəhərin tarixi mərkəzi ilə birlikdə saray 2019-cu ildə ümumdünya mədəni irs siyahısına salınmışdır. Şəki xan sarayı ölkəmizə gələn turistlərin ən çox üz tutduqları məkan olmaqla bu gün də möhtəşəmliyini qoruyub saxlamaqdadır.

Tarixi abidələrimizlə yanaşı, süfrələrimizin bəzəyi dolma, lavaş, nar da UNESCO-nun qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına daxil edilmişdir. Bir zamanlar torpaqlarımıza əl uzadan xain qonşularımız, milli mətbəximizə də əl uzatmağa cəhd edirdilər. Lavaşımızı, süfrələrimizin bəzəyi dolmanı da "özəlləşdirmək" niyyəti ilə çaba göstərirdilər. Ermənilər bütün fəaliyyətləri yalan, saxta "dəlillər" üzərində qurulduğundan bu dəfə baltanı daşa vurduqlarını yəqin ki, gec də olsa anlayarlar?

Təəssüflər olsun ki, dünyada mədəni irsin qorunub saxlanmasını öz fəaliyyət prioriteti elan etmiş UNESCO "siyasi məsələlərə qarışmırıq" adı ilə ermənilərin az qala siyasi alətinə çevrilərək ölkəmizə qarşı qərəzli mövqe sərgiləməkdədir. Bu təşkilat müxtəlif bəhanələrlə 30 illik işğal dövründə dağıdılıb viran edilmiş qəbiristanlıqların, məscidlərin, tarixi abidələrin siyahısını tərtib etmək üçün missiya göndərməkdən imtina edir. Bu azmış kimi "erməni tarixi irsinin" məhv edilməsi barədə ermənilərin uydurduqları sərsəmləmələrin "vəkili" rolunda çıxış etməkdən belə çəkinmir. UNESCO kimi tərəfsiz bir təşkilatın uzun illərin əməkdaşlığından sonra tərəf kimi çıxış etməsi, yumşaq desək, təəssüf doğurmaya bilməz.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Şamaxı türk dünyasının turizm paytaxtı olacaq



Şamaxı şəhəri 2023-cü ildə türk dünyasının turizm paytaxtı olacaq. Qərar Türk Dövlətləri Təşkilatı (TDT) turizm nazirlərinin mayın 24-də Şamaxıda keçirilən 7-ci iclasında verilib.

Tədbirdə çıxış edən təşkilatın Baş katibi Bağdad Amreyev bu təşəbbüsün davam etdirilməsinin üzv ölkələr arasında qarşılıqlı məlumatlılığın artırılmasına töhfə verəcəyini nəzərə çatdırıb. O, üzv ölkələr arasında əlaqələrin bütün müstəvilərdə inkişafının turizm sahəsinə də müsbət təsir göstərdiyini vurğulayıb.

Tədbirdə ölkələr arasında turizm üzrə müxtəlif sahələrdə, həmçinin qış turizmi üzrə əməkdaşlıq, müştərək məhsulların yaradılması istiqamətində əməkdaşlıq kimi məsələlər üzrə müzakirələr aparılıb. "Türk Dünyası Turizm Paytaxtı təşəbbüsü" ilə bağlı qaydalar təsdiq edilib və "Türk Dövlətləri Təşkilatının Turizm üzrə Yol Xəritəsi" sənədi qəbul edilib.

### Yadelli işğalçıların, təbii fəlakətlərin tarixdən silə bilmədiyi gözəl şəhər

Gələn il türk dünyasının turizm paytaxtı kimi daha çox diqqət önündə olacaq Şamaxı qədimliyini qoruyub saxlayan, zəngin tarixi keçmişini yaşadan, eyni zamanda müasirliyə qucaq açan şəhərdir.

Adını burada yaşayan qədim yerli tayfaların adından götürdüyünü bildirən mütəxəssislər olub. Ancaq bu, yeganə mülahizə deyil. Şamaxı sözünün etimologiyası ilə bağlı fərqli ehtimallar irəli sürülüb.

Azərbaycanın ən qədim şəhərlərindən biri olan Şamaxının adı tarixi mənbələrdə də yer alıb. Bu şəhər barədə antik dövr ərəb, fars, türk, rus və Orta əsr Avropa müəllifləri geniş məlumatlar veriblər. Qədim yunan coğrafiyaşünası Ptolomey "Coğrafi təlimnaması"ndə "Samaxeya", "Kemaxeya"dan bəhs edib, ərəb mənbələrində isə bu ad "Əş-Şə-maxiyyə" kimi qeyd edilib.

Şamaxı antik dövrlərdən mühüm mərkəz sayılıb. Bunu ərazisində aşkarlanan qədim Roma və Makedoniya imperiyalarına məxsus antik sikkələr də təsdiq edir. Qafqaz ərəb işğalına məruz qaldıqdan sonra Şamaxı mahal mərkəzi olub. Ərəb xilafəti zəiflədiyi vaxtlarda Şirvanşahlar dövləti qurulub. Şamaxı həmin dövlətin paytaxtı olub. Şirvanşahlar dövlətinin əsasını qoymuş Yəzid ibn-Məzyədin şərəfinə şəhər Yəzidiyyə adlandırılıb. Şirvanşahlar dövründə Şamaxı həm iqtisadi, həm də mədəni cəhətdən sürətlə inkişaf edib, xarici ölkələrlə ticarət əlaqələrini genişləndirib. Şirvanşahlar dövlətinin süqutundan sonra bura bəylərbəyi üsul-idarəsi ilə idarə olunub. 1578-ci ildən Şirvanda türk hərbi-inzibati idarə sistemi yaradılıb. Sonra Şamaxı Şirvan bəylərbəyliyinin mərkəzi olub. 1734-cü ildə Nadir şah Şamaxını dağıdıb, əhalini indiki Ağsu şəhərinin yaxınlığına - Yeni Şamaxıya köçürüb. Şamaxı xanlığı sonralar Osmanlı işğalına məruz qalıb.

### Zəngin keçmişini yaşadan və müasirliyə qucaq açan şəhər

Tarixinin qədimliyi Şamaxının hər bir yanında görünməkdədir. Çıraqlı kəndində eramızdan əvvəl I minilliyin sonuna aid qədim qəbiristanlıq var. Göylər kəndində XII-XIV əsrlərə aid Pir-Mərdəkan Xanəgahı bu gün də qalır. Dədəgünəş kəndi yaxınlığında köhnə qəbiristanlıq, "Piri-Sultan Dədəgünəş" məqbərəsinin xarabalıqları mövcuddur. Kitabəsində yazılıb: "Bu məzar mərhum, bağışlanmış, xoşbəxt şəhid olmuş, əhalinin iftixarı, yüksəklərin və böyüklərin görkəmlisi, möminlərin qulu-yoldaşı, həqiqəti meydana çıxaran, kəramət sahiblərinin rəisi, Dədəgünəş övladlarından Şeyx Dədəqulunun oğlu şeyx Məhəmmədə aiddir (1602-1603)". Araşdırıcılar Dədəgünəşin şair Əfzələddin Xaqaninin əmisi, dövrünün tanınmış həkimi və filosofu Kəfiəddin Ömər ibn Osmanın ləqəbi olduğunu qeyd ediblər. Rayonun Kələxana kəndində XVII əsrə aid memarlıq kompleksinin 9 türbəsindən 8-i bu günümüzədək gəlib çatıb. Türbələrdən birinin üstündəki kitabədə yazıldığına görə, abidə 1663-cü ildə sərkar Əbdüləzim Əmirəli oğlu tərəfindən İbrahim Əmirəhməd adlı şəxsin qəbri üzərində tikilib. Şamaxıda XIX əsrə aid türbələr kompleksi də qalmaqdadır.

Bu günə gəlib çatan tarixi abidələrdən biri də Şamaxı şəhəri yaxınlığındakı IX əsrə aid Gülüstan qalasıdır. Tarixi mənbələrdə buranın XV-XVII əsrlərdə Şirvan şahlarının müdafiə qalası və iqamətgahı olduğu bildirilib. Odlu silahların meydana çıxması ilə yeraltı gizli yollar olan Gülüstan qalası əvvəlki əhəmiyyətini itirib.

Şamaxı olduqca nadir geoloji təbiət abidələri ilə də zəngin məkandır. Ərazisində bir sıra karst mağaraları var. Dəmirçi kəndi yaxınlığındakı "Dəmirçi palçıq vulkanı" əsrarəngiz geoloji təbiət abidəsidir. Çarhan, Məlikçobanlı və Quşçu vulkanları da özünəməxsus xüsusiyyətləri, unikallığı ilə fərqlidir.

Pirqulu kəndində Azərbaycanın Şamaxı Astrofizika Rəsədxanası yerləşir. Azərbaycanın tanınmış riyaziyyatçısı, astronomu, fiziki Nəsrəddin Tusinin adını daşıyan rəsədxana 1953-1959-cu illərdə yaradılıb və Azərbaycan elminə böyük töhfələr verib.

Özünəməxsus təbiəti, meşələri və qədim tarixi ilə Azərbaycanın turizm mərkəzlərindən birinə çevrilən Şamaxı bundan sonra bütün türk ölkələrinin diqqətində olacaq. 2023-cü ildə türk dünyasının turizm paytaxtına çevrilməsi Şamaxı şəhərinin daha da inkişaf etməsinə, dirçəldilməsinə böyük təsir göstərəcək.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# "Ağıllı kənd"dən vacib ismarıc

## İlham ƏLİYEV: "Biz güclü olmasaq, istədiyimiz kimi yaşaya bilmərik"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 27-də Zəngilan rayonunda "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər. Bu tədbirə kəndin mərkəzindəki fəvvarənin açılışı ilə start verilib. Su bizdə əsrlər boyudur ki, aydınlığın rəmzi kimi sayılır. 30 illik işğaldan sonra xarabalıqların içindən qaldırılan Ağalı kəndinin fəvvarələrlə həyata "qədəm" qoyması da bu kəndin aydın və nurlu gələcəyinin ilk müjdəsidir.

Kənd müasirliyi ilə seçilən və ən xırda ehtiyacları belə nəzərə alan "ağıllı" layihə əsasında salınmışdır. Burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət", DOST, Kiçik və Orta Biznesin İnkişafı mərkəzləri kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışını təmin edəcəklər. Bu mərkəzlərdə sakinlərə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmət onlayn formada göstəriləcək, müraciətlər yerindəcə həll olunacaq.

Ağalının "ağıllı" idarəetmə mərkəzində (situasiya mərkəzində) "ağıllı həllər" nəzərdə tutulmuşdur. Xərclərin azaldılması, yaşayış səviyyəsinin yüksəlməsi, sürətli internetin təmin edilməsi başlıca məqsədlərdəndir. Kəndin "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi isə burada bütün sosial infrastrukturun tam ciddi düşünüldüyünü və maksimum məmnunluğun yaradılmasını sübut edir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Salam doktor" platforması üzərindən xaricdə yaşayan və işğaldan azad edilmiş bölgələrdə əhaliyə xidmət göstərən azərbaycanlı həkimlərlə videobağlantı vasitəsilə söhbət etdilər. Videobağlantıda Danimarkada yaşayan həkim Məsud Aşina özünün və həmkarlarının adından Azərbaycan Prezidentini və birinci xanımı salamladı, özü və Danimarkada çalışan digər azərbaycanlı həkimlər haqqında məlumat verdi, "Salam doktor"u təmsil etdiklərini bildirdi: "Biz bu texnologiyadan istifadə edəcəyik. Əsas məqsəd ondan ibarətdir ki, seminarlar, konsultasiyalar, konsiliumlar keçirək, tele-tibb imkanından maksimum istifadə edib hər zaman Qarabağ zonasında, bizim Zəngəzurda olaq".

Azərbaycan Prezidenti İlham Əliyev xaricdə yaşayan azərbaycanlıların azad edilmiş torpaqların bərpası ilə bağlı fəal çalışdığını, keçən ay Dünya Azərbaycanlılarının Qurultayının ilk dəfə Şuşada keçirilməsini ən böyük arzuların reallaşması kimi dəyərləndirdi. Dövlət başçısı belə hesab edir ki, dünyanın müxtəlif ölkələrində yaşayan həmyerlilərimiz Qarabağın bərpasında iştirak etməkdən başqa, heç olmasa ildə bir dəfə bura gəlməlidir.

Dövlət başçısı Ağalı kəndindəki çıxışında çox vacib məqamlara toxundu. Qeyd etdi ki, rus imperiyası dağılanda Azərbaycan müstəqilliyini elan etsə də, onu qoruya bilmədi, iki ilə yaxın müddət ərzində süqut etdi. Dövlət müstəqilliyimiz elan olunan günün səhərisi Azərbaycan Xalq Cümhuriyyətinin qədim şəhərimiz İrəvanı Ermənistana təhvil verməsini Prezident "bağışlanmaz cinayət" adlandırdı. Çünki bunun ardınca digər ərazilərimiz ardıcıl olaraq ermənilərin əlinə keçməyə başladı. Müasir Azərbaycanın müstəqilliyi bərpa olunduqdan sonra iki il ərzində Xocalı soyqırımı törədildi, Şuşa, Laçın, Kəlbəcər işğal edildi, Ermənistan keçmiş Dağlıq Qarabağı və daha sonra onun ətrafındakı rayonları özünə birləşdirdi. Yalnız xalqın təkidi ilə Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra biz müstəqilliyimizin gücünü hiss etdik. Azərbaycan Prezidenti günümüzün reallığını belə dəyərləndirdi: "Ovaxtkı hakimiyyət torpaqlarımızı qoruya bilmədi. Ancaq bu gün müstəqilliyimiz möhkəmdir və bunun nəticəsində biz İkinci Qarabağ müharibəsində qələbə qazandıq, tarixi qələbə qazandıq. Bunun nəticəsində düşməni diz çökdürdük və bunun nəticəsində bu gün biz buradayıq".

İlham Əliyev Ağalı kəndinin dünyanın ən mütərəqqi kəndlərindən birinə çevrildiyini qürurla qeyd etdi: "Bunu biz etmişik, öz gücümüzlə və azad edilmiş bütün digər torpaqlarda öz gücümüzlə bərpa işlərini aparırıq və indi nəhəng layihələr icra edilir". İndi kim "ağıllı" kəndin digərlərindən fərqinin nədən ibarət olduğunu anlamaq istəyirsə, Ağalı kəndinin ziyarətinə gələ bilər.

Dövlət başçısı Ağalıdan ən vacib mesajlarını çatdırdı, ölkələrarası münasibətlərdə bundan sonra da güc amilinin hakim rol oynayacağını bildirdi: "Bunu indi yaxın tarix də göstərir. Ona görə bundan sonra da güclü olmalıyıq və güclü oluruq. Bu gün iqtisadi göstəricilərimiz çox müsbətdir. Deyə bilərəm ki, dünya miqyasında ən sürətlə inkişaf edən ölkələrdən biri Azərbaycandır. Hərbi gücümüzü də artırırıq. Müharibədən sonra yeni silahlı birləşmələr yaradılır, yeni texnika alınır və bundan sonra da biz bunu edəcəyik. Çünki biz güclü olmasaq, istədiyimiz kimi yaşaya bilmərik. Biz istəyirik ki, azad yaşayaq. Biz istəyirik ki, bundan sonra heç kim bizim işimizə qarışmasın. Buna ehtiyac yoxdur. Biz elə gözəl dövlət qurmuşuq ki, bu gün bir çoxları buna həsəd aparır. Heç kim gəlib bizə dərs oxumasın, məsləhət verməsin, öyrətməsin. Buna ehtiyac yoxdur".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# AZƏRTAC-ın kollektivi şəhid jurnalist Məhərrəm İbrahimovun xatirəsini ehtiramla anıb





Mətbuat tariximizə əlamətdar günlərlə yanaşı, acı günlər də yazılıb. 2021-ci il iyunun 4-də belə günlərdən biridir.

Kəlbəcər rayonuna ezam olunmuş bir qrup jurnalisti aparan avtomobilin Susuzluq kəndi istiqamətində həmin gün minaya düşməsi nəticəsində AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak oldular.

Bu faciəli hadisənin birinci ildönümü ilə əlaqədar AZƏRTAC-da anım mərasimi keçirilib. Mərasimdə şəhid jurnalist Məhərrəm İbrahimovun ailə üzvləri - həyat yoldaşı Bahar xanım, övladları Uğur və Toğrul da iştirak edirdi.

Əvvəlcə Məhərrəmin AZƏRTAC-dakı xatirə guşəsinin önünə gül dəstələri düzülüb, bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Mərasimdə qeyd edilib ki, 44 günlük Vətən müharibəsi dövründə AZƏRTAC-ın kollektivi xüsusilə gücləndirilmiş iş rejimində çalışıb. Agentliyin cəbhə bölgəsinə ezam olunmuş əməkdaşları düşmən atəşi altında gecə-gündüz çəkilişlər aparıblar. Müharibə başa çatdıqdan sonra azad edilmiş torpaqlarda aylarla çalışan çəkiliş qrupunun üzvləri erməni vandalizminin, viran edilmiş yurd yerlərinin görüntülərini lentə alaraq arxivləşdiriblər. Onlardan biri də xidməti vəzifəsini yerinə yetirərkən minaya düşərək şəhid olmuş Məhərrəm İbrahimovdur.

Uzun illər agentlikdə Məhərrəm İbrahimovla birlikdə çalışmış əməkdaşlar çıxış edərək mərhum jurnalistlə bağlı xatirələrini bölüşüb, onun vətənpərvərliyindən və peşəsinə sonsuz bağlılığından söhbət açıblar.

AZƏRTAC-ın rəhbərliyi və kollektivi şəhid jurnalistin xatirəsini əziz tutur, ailə üzvlərinə daim diqqət və qayğı göstərir.

Anım mərasimində Məhərrəmin həyat yolunun və müxbirlik fəaliyyətinin bəzi məqamlarından bəhs edən videoçarx nümayiş olunub.

Kollektivin üzvlərindən bir qrupu şəhid jurnalist Məhərrəm İbrahimovun Müşfiqabad qəsəbə qəbiristanlığındakı məzarını ziyarət edib. İş yoldaşlarının, doğmalarının, dostlarının iştirak etdiyi anım mərasimində Məhərrəmin məzarı önünə AZƏRTAC-ın kollektivi adından əklil qoyulub, gül dəstələri düzülüb.

Şəhidin qardaşı Əsgər İbrahimov, bacısı Sevda İbrahimova Məhərrəmin ömür yolundan danışıb, xatirəsini daim əziz tutduqlarına, ailəsinə göstərilən diqqət və qayğıya görə AZƏRTAC-ın kollektivinə minnətdarlıqlarını bildiriblər.

İdarə Heyəti sədrinin müavini Dağbəyi İsmayılov çıxış edərək deyib ki, Məhərrəm İbrahimov peşəkar jurnalist kimi AZƏRTAC-da formalaşıb, ordu həyatının işıqlandırılmasında yaxından iştirak edib, onun qaynar nöqtələrdən, hadisə yerindən hazırladığı reportajlar oxucular tərəfindən maraqla qarşılanıb.

Məhərrəmin verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirməsindən, həmçinin insani keyfiyyətlərindən danışan D.İsmayılov deyib: "O, 39 yaşında şəhidlik zirvəsinə ucaldı. Hamımız bu dünyadan köçəcəyik, bəlkə də çoxlarımızı xatırlamayacaqlar, ancaq Məhərrəm daim xatırlanacaq. Çünki şəhidlər ölmürlər, onlar qəlblərdə daim yaşayırlar".

# Dünya ümidini Ərdoğana bağlayıb

## Görünür, bir çox ölkələri aclıq təhlükəsindən qardaş Türkiyə xilas edəcək

Rusiya-Ukrayna arasındakı gərginlik iki ölkənin sərhədlərindən çox uzağa gedib. Bu hərbi qarşıdurma dünya iqtisadiyyatına da ağır zərbə vurur. Bu ölkələrin dünya bazarına əhəmiyyətli dərəcədə buğda və günəbaxan yağı ixrac etdiklərini vurğulamaq kifayət edər ki, həmin zərbənin fəsadları məlum olsun. Bu iki ölkənin dünya üzrə buğda istehsalında üçdəbir paya sahib olması azmı təhlükədən xəbər verir?!

Rusiya buğda ixracına məhdudiyyətlər qoyub, Ukrayna isə müharibə səbəbindən dünya bazarında buğda sata bilmir. Ukrayna buğdanı Qara dənizdəki limanları vasitəsilə ixrac edirdi. Həmin limanlar isə Rusiya hərbçiləri tərəfindən nəzarətə götürülüb.

Dünyadakı bir çox ölkələr, eləcə də BMT yaranmış vəziyyətdən narahatdır. Səbəb ən çox istifadə olunan bu ərzaq növünün ehtiyatının tükənməsi ilə bağlıdır. BMT Təhlükəsizlik Şurasında həmin məsələ müzakirə olunarkən dəhşətli faktlar üzə çıxıb. Belə ki, "Gro Intelligence" analitik şirkətinin baş direktoru, ərzaq təhlükəsizliyi üzrə tanınmış mütəxəssis Sara Menker bildirib ki, dünyada 10 həftəlik buğda ehtiyatı qalıb. Həyəcan doğuran əsas məsələ odur ki, bu iki ölkə arasında müharibənin nə vaxt bitəcəyini heç kəs bilmir.

Bir yandan da iki ildən çox davam edən koronavirus pandemiyası sayəsində dünyada tədarük zənciri qırılıb. Qlobal ticarətdə bu üzdən bir sabitsizlik hökm sürür. Buğda ixracında yaranan çətinliklər onun qiymətinin artmasına da səbəb olub. Digər bir faktor ondan ibarətdir ki, istehsalçı ölkələr bu fürsətdən istifadə edib onun satış qiymətini artırıb. BMT mütəxəssislərinin proqnozuna görə, belə hal dünyada 400 milyon insanın ərzaqla təminatını risk altına alır.

Böhranı aradan qaldırmaq üçün BMT başda olmaqla, dünyanın aparıcı dövlətləri bu məsələni həll etməyə cəhd göstərir. Sözsüz ki, hamı Rusiyanı günahlandırır. Deyirlər ki, Rusiya bu yolla dünyaya təsir etmək istəyir. Bu iradlara cavab olaraq Vladimir Putin İtaliyanın Baş naziri Mario Draga ilə telefon söhbəti zamanı bildirib ki, hazırkı böhranın əsas səbəbi pandemiya ilə bağlı dünyada daşıma zəncirinin qırılması, həmçinin Qərb dövlətlərinin apardığı düzgün olmayan maliyyə siyasətidir. Rusiya probleminin tezliklə həlli yolu kimi ona qarşı tətbiq edilən sanksiyaların aradan qaldırılmasında görür.

Bu məsələ bir çox dövlətlərlə müzakirə edilsə də, hələ ki, heç bir nəticə əldə olunmayıb. Artıq dünyada belə bir fikir formalaşıb ki, Rusiya ilə bu işi yalnız Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan həll edə bilər. Məsələnin həlli üçün Fransa Prezidenti Emmanuel Makronun Türkiyə Prezidentinə müraciət etməsi də deyiləni təsdiq edir. Ukraynadan buğda ixracını təmin etmək üçün Türkiyə Prezidenti Rusiya və Ukraynanın dövlət başçıları ilə telefonla müzakirə aparıb. Rəcəb Tayyib Ərdoğan telefon danışığı zamanı V.Putinə iki ölkə arasında qarşılıqlı inam yarada biləcək addımların atılmasının faydalı olacağını bildirib. Bunun üçün tərəflər arasında BMT-nin nümayəndələrinin iştirakı ilə İstanbulda danışıqların aparılmasını təklif edib.

Rusiya və Türkiyə tərəfindən verilən məlumatlar bu gedişin yaxşılığa doğru inkişaf edəcəyinə müəyyən ümidlər yarandığını göstərir. Belə ki, Kreml tərəfindən açıqlanan məlumata görə, dövlət başçıları Azov dənizi və Qara dənizdə mülki gəmilərinin təhlükəsizliyinin təmin edilməsi məsələsi barədə geniş fikir mübadiləsi aparıblar. Müzakirələr zamanı Rusiya Prezidenti Türkiyə ilə koordinasiyalı şəkildə taxıl da daxil olmaqla, yüklərin daşınmasına yardım etməyə hazır olduğunu bildirib. Türkiyə isə yüklərin boğazlardan tez və təhlükəsiz keçməsinə hər cür kömək göstərəcəyinə söz verib.

Türkiyənin, xüsusilə Rəcəb Tayyib Ərdoğanın bu məsələdə səyini əsirgəməməsi dünyanın hazırda ən çox ümid etdiyi faktordur. Bu qardaş ölkənin rəsmilərinin verdiyi bəyanatlardan da aydın görünür. Belə ki, Türkiyə Prezidentinin rəsmi nümayəndəsi İbrahim Kalın demişdir ki, məsələni bir-iki həftə ərzində həll edərək Ukrayna buğdasını dünya bazarına daşımaq mümkün olacaq. Bunun üçün bir sıra texniki məsələlər müzakirə olunub razılığa gəlinməlidir.

Qərb Rusiyaya qarşı qəbul edilən sanksiyaların aradan qaldırılmasının qəti əleyhinədir. Bunun üçün Ukrayna taxılını alternativ yollarla dünya bazarına çıxarmaq barədə tədbirlər görməyə çalışır. Bu məqsədlə Avropa İttifaqı Ukraynadan taxılı dəmir yolu vasitəsilə ixrac etməyə çalışır.

Həmin plan çərçivəsində Almaniyanın "Deutsche Bahn" dəmir yolu konserninin törəmə şirkəti olan "DB Cargo" şirkəti hökumətlə koordinasiyada Ukraynaya taxıl ixracında daha çox dəstək verməyi planlaşdırır. "DB Cargo"nun rəhbəri Ziqrid Nikutta Almaniyanın "Redaktions Netzwerk Deutschland (RND) media qrupuna müsahibəsində bildirib ki, dünyanın bəzi yerlərində aclıq təhlükəsini və milyonlarla ton Ukrayna taxılının dünya bazarlarına çıxarılmasına böyük ehtiyac duyulduğunu nəzərə alaraq, "DB Cargo" federal hökumətlə razılaşdıraraq gələcək sifarişlərin dəmir yolu ilə daşınmalarını təşkil edəcək.

Dünya bazarında baş verən buğda böhranı ölkəmizdən də yan keçmir. Biz ildə təxminən 1,2-1,3 milyon ton ərzaqlıq buğda idxal etmək məcburiyyətindəyik. Ölkəmizdə idxaldan asılılığı azaltmaq üçün lazımi tədbirlər görülür. Əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi, bu sahədə mütərəqqi texnologiyaların və məhsuldar toxum sortlarının istifadə edilməsi sayəsində məhsuldarlıq xeyli artıb. Ancaq bu kifayət deyil, daha çox iş görülməlidir.

Məlumdur ki, ölkəmizdə tələbata uyğun buğdanın yetişdirə bilməməyimizin başlıca səbəbi kifayət qədər əkin sahələrinin olmamasıdır. Qələbəyəcən ölkə üzrə 600 min hektar sahədə buğda əkilirdi. Torpaqlarımız işğaldan azad olunandan sonra daha 100 min hektara yaxın əlavə sahədə taxıl əkmək imkanı qazanmışıq. Bu bizə idxaldan asılılığı bir qədər azaltmağa imkan verir. Lakin ərzaq təhlükəsizliyimizi etibarlı təmin etmək üçün taxılçılıqda məhsuldarlığı artırmaq ən doğru yoldur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Dünyanı enerji böhranı təhdid edir

Koronavirus pandemiyası universal enerjiyə çıxış yolunda da tərəqqiyə mane olan əsas amillərdən birinə çevrildi. Belə ki, hazırda dünyada 733 milyon insan elektrik enerjisi olmadan yaşayır və 2,4 milyard insan hələ də sağlamlığa və ətraf mühitə zərər vuran yanacaqlarla yemək bişirir.



Hesablamalara görə, 2030-cu ilə qədər təxminən 670 milyon insan işıqsız qalacaq ki, bu da keçən il proqnozlaşdırılandan 10 milyon nəfər çoxdur. Bu barədə BMT-nin dəstəyi ilə hazırlanan hesabatda deyilir.

### Enerji üçün maliyyə artırılmalıdır

2022-ci il üçün yeni "Energetika sahəsində tərəqqi haqqında" adlı hesabat hazırlanıb. Sənəd Dayanıqlı İnkişaf Məqsədlərindən biri olan DİM-7 üçün qəyyum agentliklər kimi tanınan BMT agentlikləri və tərəfdaşlar tərəfindən ərsəyə gətirilib. DİM-7 proqramı 2030-cu ilə qədər keyfiyyəti müasir standartlara cavab verən enerjidən hamının faydalanmasını nəzərdə tutur.

Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin baş direktoru Françesko La Kamera bildirib ki, xüsusilə ən yoxsul və ən zəif ölkələrdə bərpaolunan enerji üçün beynəlxalq dövlət maliyyəsi artırılmalıdır. Agentlik buna ən çox ehtiyacı olanlara kömək edə bilmir.

### Ən həssas ölkələr

Pandemiyanın fəsadları, qlobal təchizat zəncirlərinin pozulması, habelə münasib ərzaq və yanacaq qiymətlərini saxlamaq üçün maliyyə resurslarının yenidən bölüşdürülməsi DİM-7-yə doğru irəliləyişin sürətinə təsir edib.

Xüsusilə ən həssas və energetika sahəsində onsuz da geridə qalmış zəif ölkələrdə tərəqqi ləngiyib. Asiya və Afrika ölkələrində əvvəllər elektrik enerjisinə çıxışı olan 90 milyona yaxın insan artıq bu ehtiyaclarını ödəyə bilmir.

COVID-19 böhranının enerji sektoruna təsiri son bir neçə ayda Rusiyanın Ukraynaya müdaxiləsi ilə daha da artıb və bu, qlobal neft və qaz bazarlarında qeyri-müəyyənliyə və enerji qiymətlərinin kəskin artmasına səbəb olub.

Afrika 568 milyon sakininin enerjidən məhrum olması ilə dünyada ən az elektrikləşdirilmiş qitə olaraq qalır. Elektrik enerjisindən faydalana bilməyən əhalinin sayı 2018-ci ildəki 71 faizdən 2020-ci ildə 77 faizə çatıb.

Dünyada daha 70 milyon insan təmiz yanacaq və yemək bişirmə texnologiyalarına çıxış əldə etsə də, bu tərəqqi, xüsusən də Saharadan cənubda Afrikada, əhalinin artımını kompensasiya etmək üçün yetərli olmayıb.

Davam edən iqtisadi çətinliklərə baxmayaraq, bərpaolunan enerji pandemiya zamanı inkişaf edən yeganə enerji sənayesi olmuşdur. Bununla belə, elektrik enerjisinə ən çox ehtiyacı olan ölkələrin bir çoxu geridə qalıb. Vəziyyət həm də beynəlxalq maliyyə axınlarının ikinci ildir ki, aşağı düşməsi səbəbindən pisləşib.

### Qida hazırlanması üçün təmiz yanacaq

ÜST-ün İctimai Səhiyyə və Ətraf Mühit Departamentinin direktoru Mariya Neyra bildirib ki, yemək bişirmək üçün təmiz yanacaqdan istifadə etmək imkanı həlledici əhəmiyyətə malikdir. Milyonlarla insan ürək xəstəlikləri, insult, xərçəng və pnevmoniyadan dünyasını dəyişir, çünki onlar yemək bişirmək üçün havanı çirkləndirən əsas mənbələr olan "çirkli" yanacaqlardan və texnologiyalardan istifadə edirlər.

Qeyd edilir ki, qadınlar və uşaqlar xüsusilə risk altındadırlar. Çünki onlar evdə daha çox vaxt keçirirlər, buna görə də ən çox zərər bu katerqoriyadan olan adamların sağlamlığına və rifahına dəyir.

ÜST rəsmisi hesab edir ki, təmiz və davamlı enerjiyə keçid insanların sağlamlığını yaxşılaşdırmaqla yanaşı, həm də planetimizi qoruyacaq və iqlim dəyişikliyinin təsirlərini azaldacaq.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***







BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5967
Sifariş 1516
Qiyməti 40 qəpik